Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# XƏLİL RZA ULUTÜRK

***Biblioqrafiya***

**Bakı – 2017**

**KBT** Я19:Ш+Ш5(2=Аз)7-44я1
**UOT** 016:821.512.162

**Rəyçi:** **İsa Həbibbəyli,** *akademik*

**Tərtib edənlər:** **Mədinə Vəliyeva**, **Lalə Şirinova**, **Gülbahar Misirova**

**Elmi redaktor:** **Kərim Tahirov,** *professor,* *Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Gülbəniz Səfərəliyeva,** *Əməkdar mədəniyyət işçisi*

**Xəlil Rza Ulutürk:** biblioqrafiya /tərt. ed.: M.Vəliyeva, L.Şirinova, G.Misirova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva.- Bakı, 2017.- 464 s.

Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib etdiyi biblioqrafiyada Xalq şairi Xəlil Rza Ulutürkün əsərləri, həyat və yaradıcılığı, ictimai-siyasi fəaliyyəti haqqında materiallar toplanmışdır.

Kitab ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978 9952 476 02 6**

**©M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2017**

## Tərtibçidən

Türk dünyasında zaman-zaman azadlıq uğrunda mübarizə və mücadiləyə qalxan, canlarından keçən bir çox görkəmli şəxsiyyətlər və yazarlarımız olub. Bunlardan biri də Azərbaycanın Xalq şairi, istiqlalımızın mücadiləçisi Xəlil Rza Ulutürkdür.

Ulutürk doğma Azərbaycanını canından əziz tutan, Vətəninə sevgisini təkcə sözü ilə deyil, əməli ilə də sübuta yetirən vətənpərvər insan, başqalarına örnək ola biləcək güclü şəxsiyyət olmuşdur.

2017-ci ilin oktyabr ayında Azərbaycanın Xalq şairi, tənqidçi, ədəbiyyatşünas, tərcüməçi, Türk dünyasının tanınmış şairi Xəlil Rza Ulutürkün anadan olmasının 85 illiyi tamam olur. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırladığı "Xəlil Rza Ulutürk" adlı göstərici onun haqqında tərtib olunmuş ilk fundamental biblioqrafiyadır. Bu nəşrdə şairin əsərləri, həyat və yaradıcılığı, siyasi fəaliyyəti haqqında 1948-2017-ci illərdə dərc olunan zəngin material toplanmışdır.

Vəsaitdə "Xəlil Rza Ulutürkün həyat və yaradıcılığının əsas tarixləri", "Xəlil Rzanın yadda qalan misraları", "Xəlil Rza Ulutürk qələm dostları haqqında", "Görkəmli şəxsiyyətlər və qələm dostları Xəlil Rza haqqında" bölmələri öz əksini tapmışdır.

Azərbaycan və rus dillərində tərtib edilən biblioqrafik göstəricidə materiallar xronoloji prinsiplə, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır. Vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə sonda köməkçi göstəricilər verilmişdir.

Kitab ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və rəylərini M.F.Axundov adına Milli Kitabxanaya göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ-1000, Bakı şəh., Xaqani küç. 57;
**E-mail:** contact@anl.az; **URL:**www.anl.az





## Xəlil Rza Ulutürk – Azərbaycançılıq məfkurəsinin davamçısı

Xəlil Rza Ulutürk XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istiqlal şairi, ədəbiyyatşünas-alim, tərcüməçi, memuarist və ictimai xadimdir. O, milli-demokratik hərəkatımızın usanmaz mücahidi, istiqlalçılıq, türkçülük və azərbaycançılıq məfkurəsinin davamçısıdır. Xəlil Rza üç istiqlal şairimizdən: Məhəmməd Hadi, Əhməd Cavad və Məhəmməd Biriyadan biridir.

X.R.Ulutürk 21 oktyabr 1932-ci ildə* Salyan qəzasının Pirəbbə bölgəsində dünyaya gəlib. 1949-1954-cü illərdə ADU-nun filologiya fakültəsində, 1957-1959-cu illərdə Moskvanın Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda oxuyub.

1963-cü ildə "Müharibədən sonrakı Azərbaycan sovet ədəbiyyatında poema janrı (1945-1950)" mövzusunda namizədlik, 1985-ci ildə "Məqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-özbək ədəbi əlaqələrinin aktual problemləri" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib.

1959-1969-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində müəllim, dosent işləyib. 1969-1994-cü illərdə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda çalışıb.

İlk şeiri ("Abşeron") 1948-ci ildə, ilk şeir kitabı ("Bahar gəlir") 1957-ci ildə nəşr edilib. 1954-cü ildən Azərbaycan və SSRİ Yazıçılar Birliyinin üzvü olub. 1986-cı ildə "Əməkdar incəsənət xadimi", 1992-ci ildə"Xalq şairi", 1995-ci ildə "Türkiyə Respublikasının Milli şairi" fəxri adlarına layiq görülüb.

Azərbaycanın milli azadlıq hərəkatında fəal iştirakına görə 26 yanvar 1990-cı ildə SSRİ Dövlət Təhlükəsizlik Komitəsi

*Bəzən X.Rzanın təvəllüd tarixi 1933-cü il də göstərilir. Şairin pasportu, hərbi biletində də 1933-cü il göstərilib. Lakin X.Rzanın özü bunu 1932-ci il kimi vurğulayıb. "Təşviqatçı" jurnalını özü ilə yaşıd bilib (yəni nəşr ili – 1932-ci il).

tərəfindən həbs edilib. Bakı, Rostov, Voronej və Moskvadakı Lefortovo zindanında 8 ay 13 gün saxlanılıb.

22 iyun 1994-cü ildə vəfat edib. Qəbri Fəxri xiyabandadır.

1995-ci ildə "İstiqlal ordeni" ilə təltif edilib. 1995-ci ildə anadan olmasının 60 illiyi, 2004-cü ildə 70 illiyi, 2012-ci ildə 80 illiyi dövlət səviyyəsində qeyd olunub.

X.Rzanın Prezident sərəncamları əsasında 1, 2 və 5 cildlik seçilmiş əsərləri nəşr edilib. O, 36 bədii, 15 tərcümə, 13 elmi, 7 memuar kitabın müəllifidir. Haqqında 9 elmi kitab çap olunub.

X.Rzanın babaları 20-30-cu illərdə bolşeviklər tərəfindən güllələnib, torpaq sahələri əllərindən alınıb. Atası Rza kişi İkinci Dünya müharibəsində Moskvaaltı döyüşlərdə ağır yaralanıb, 1947-ci ildə vəfat edib.

Xəlil Rza Salyan rayonundakı "Sosializm yolu" qəzeti redaksiyası nəzdindəki poeziya dərnəyi, M.İbrahimovun 1948-ci ildə təşkil etdiyi "Gənclər günündə" dərnəyi, C.Xəndanın və B.Vahabzadənin təşkil etdiyi dərnəklərdə iştirak edib. N.Xəzri, M.Araz, Qabil, S.Tahir, Ə.Kürçaylı, F.Qoca kimi M.Qorki adına Ali Ədəbiyyat kurslarında oxuyub. Atası yeniyetmə oğluna Füzuli, Raci, Dəxil, Dilsuz, Sabir, Tofiq Fikrət, Nəvai, Rustaveli, Əlibəy Hüseynzadə, Ziya Göyalp, Qumru, Yunus İmrədən söhbətlər edib, bütün bunlar onun mənliyinə, psixologiyasına təsir göstərib. Bakıdakı, Moskvadakı təhsil illəri Xəlil Rzanın şüur və məfkurəsini oyandırıb.

Şair Moskvada, Rusiyanın dissident gənclər nəsli ətrafında oxuyub, Lev Ozerov, Pavel Antokolski onun müəllimləri olub. K.Simonovun "Novıy mir" jurnalından qovulması, B.Tvardovskinin təqib olunması, B.Pasternakın "Doktor Jivaqo" əsərinə görə SSRİ Ədəbiyyat Fondu üzvlüyündən çıxarılması, Soljenitsının dissidentliyi... onun "gözləri qarşısında" baş verib.

Xarici ölkələrin görkəmli yazıçıları Pablo Neruda, Romen Rollan, Mixail Şoloxov, Nazim Hikmət və başqaları ilə görüşlər, Moskva ədəbi mühiti, Ç.Aytmatov, R.Həmzətov, Y.Yevtuşenko, D.Kuqultinov kimi tələbə dostların əhatəsi, bütün bunlar X.Rzanın dünyagörüşünə ciddi təsir göstərib.





Sənətkar ali məktəbdə Nizami, Nəsimi, Füzuli, Sabir, Səməd Vurğun və başqalarından mühazirələr oxuyanda, gəncləri ayağa qaldıranda, "Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım, oyadar xəlqi əfğanım o sahildə, bu sahildə" deyib, iki yerə parçalanmış torpağın, insanların dərdini ifadə edəndə izlənilməyə başlayıb. X.Rza 1961-ci ildən 1975-ci ilədək Azərbaycan KP MK, DTK və Yazıçılar İttifaqı səviyyəsində təqib olunub. "Ana dili", "Dəlidağ", "Məftillə sarınmış yaralar", "İki qardaşın söhbəti", "Gələcəksən baharda", "Adımız, soyadımız", "Qalx ayağa, Vətənim" poema və şeirlərini vaxtında çap etdirə bilməyib.

X.Rza APİ-dən qovulub (1969), uzun müddət işsiz qalıb, Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundova, şöbə müdiri Cəfər Cəfərova, Teymur Elçinə (Əliyevə) ərizələrlə müraciət edib. İctimai-ədəbi mühitdən mümkün qədər təcrid edilən sənətkar dissident həddinə gəlib. Şair 2 mart 1962-ci il tarixli müraciətində yazırdı: "Məni hər addım başı təhlükə gözləyir – dərrakəsi, vətən eşqi, partiya əqidəsi olmayan miskin adamlar tərəfindən olan təhlükə... Mən Naxçıvan, Ordubad, Şahbuz görüşlərimdəki çıxışlarımda ehkamçılara, dargözlərə, partiya deyə-deyə partiyaya zərbə vurmağa hazır olanlara qarşı nifrətimi gur səslə elan etmişəm. Mən hələ də o yerlərdən məktub almaqdayam. O məktublar belə bəd ayaqda mənə qüvvət verir. Tutduğum yolun doğruluğuna məni inandırır. Bəzən belə bir axmaq fikrə düşürəm ki, bir halda ki, Azərbaycanda qüdrətli adamların sayı bu qədər azdır, baş götürüb Özbəkistana, yaxud qeyri yerə getməliyəm. Məni bundan sonra da sıxışdırsalar, çap imkanı verməsələr, başqa çarəm qalmayacaqdır.

H.Ə.Əliyev demişdir: "O illər, 60-70-ci illərdə Azərbaycanda dissident axtarsaydıq, onlar çox idi. Ən böyük dissident Bəxtiyar Vahabzadə idi. Hətta mənim xatirimdədir, mən Təhlükəsizlik Nazirliyində işləyən zaman onun həbs olunması məsələsi qoyulmuşdu. Yaxud da ki, Xəlil Rza ən böyük dissidentlərdən biri idi. Çünki onun əsərləri, o cümlədən Bəxtiyar Vahabzadənin əsərləri həqiqəti deyirdi. Amma bu həqiqət o vaxtkı kommunist ideologi-

yasına zidd idi və buna görə də onlar dissident idilər. Ancaq biz Xəlil Rzanı da qoruduq, saxladıq.”

“...Xəlil Rzanı da həbs etmək məsələsini qoymuşdular. Onu da mən qoymadım, xilas etdim, neçə-neçə belələrini xilas etdim.”

Şair KP MK-nın birinci katibi H.Əliyevə ünvanladığı 1969-cu il 9 oktyabr tarixli məktubunda yazırdı: “Azərbaycan dilinin təsir dairəsini genişləndirmək, milli simasını itirmişlərə qarşı amansız olmaq, qənimətçilərə, rüşvətxorlara qarşı mübarizədə əsla güzəştə getmədən döyüşmək sizinlə birlikdə mənim də məramımdır”. X.Rzanın milli şüur və məfkurəsinin ilk təzahürü ana dilinə münasibətilə bağlıdır. Zəngin folklordan, klassik poeziyadan (ədəbiyyatdan), “Əkinçi”, “Kəşkül”, “Molla Nəsrəddin”dən üzü bəri dil məsələsi həmişə vacib problemlərdən olub.

Milli mənlik şüurunun təzahürü vətəndaşlıqdır. X.R.Ulutürkdə vətəndaş ideyasının mənbəyi Vətən və xalqdır. Bu ideya milli ideal (azadlıq) və xalq taleyinin daşıyıcısıdır. Şairin yaradıcılığında milli azadlıq hərəkatının doğuşunda həmin ideyanın tarixi rolu olub.

Milli ruh 1930-cu illərdə S.Vurğunun “Azərbaycan” (1935), 40-cı illərdə O.Sarıvəllinin “Gətir, oğlum, gətir” (1943), 50-60-cı illərdə B.Vahabzadənin “Gülüstan” (1958), “Ana dili” (1960), M.Şəhriyarın “Heydər baba” (1954), S.Tahirin “Ana dili” (1959), H.Savalanın “Türkcə təranələr” (1962), B.Səhəndin “Sazımın sözü” (1965), X.Rzanın “Ana dili” (1959), “Dilim mənim, nərəm mənim” (1962) şeirlərində təzahür edib.

İstiqlal məfkurəsi B.Vahabzadə, M.Araz, X.R.Ulutürk və S.Tahir özünüdərkinin mənbələrindən olub. X.Rzanın yaradıcılığında 1950-80-ci illər boyunca bu məfkurənin doğuşunu və inkişafını aydın müşahidə edirik.

X.Rzanın 1950-60-cı illərdən başlayan istiqlal məfkurəsində (“Afrikanın səsi” (1960), “Gözün aydın, Azərbaycan” (1968), “Yetkinləş, Xəlil” (1968), “Gedər”) milli və bəşəri səviyyədə azadlıq düşüncələri ilə bərabər, Quzeylə Güneyin birləşdirilməsi – bütöv Azərbaycan ideyası ifadə olunub.

Şairin azadlıq məfkurəsi 1950-60-cı illərdə mücərrəd məna, ideya daşıyıb, əsasən, romantika, təxəyyül məhsulu olub. Sənətkar





1970-ci illərdə beynəlxalq mövzuda yazdığı şeirlərində də milli ruhunu canlandırıb, bəşəridə milli, millidə bəşəri ideya axtarıb.

1960-70-ci illərin şeirlərində X.Rzanın istiqlal düşüncələri “sızmalar” şəklindədir. 1970-ci illərin axırları, 1980-ci illərin şeirlərində isə güclü olub, şairin milli məramını aydın nişan verir.

X.Rzanın 1980-ci illərdəki əsərləri imperiyanın kəskin ifşası, yəni mübarizə pafosu, Azərbaycan xalqının müstəqilliyi, suverenliyi, yəni milli istiqlaliyyəti ilə bağlı olub. Bu illərin şeirlərində qüdrətli çağırış ruhu şairin qayə və məramını aydın göstərib.

Şairin millilik uğrunda mübarizəsi ilk əvvəl özü ilə mübarizəsindən başlayıb (“Əyilmək qorxusu” (1973), “Gücüm, gücsüzlüyüm” (1978), “Çılğınlıqdan dözümə keçid” (1984), “Dözümlü ol, dəli könül” (1984)).

“Məndən başlanır Vətən” (1983), “Heç bir ehtiyat” (1986), “Heç olmasa bircə nəfər” (1986) şeirlərində X.Rzanın tərəddüdləri yox olub, şair qətiyyətli hökmü, andı ilə məqamlaşıb. Sənətkarın həyat mövqeyində səbatın, qətiyyətin rəhni xalqın sarsılmaz gücü olub (“Xalq qüdrəti” (1986)).

X.Rza yaradıcılığının qida mənbələrindən biri də türkçülük məfkurəsidir. Türkçülük şüuruna qayıdış imperiya siyasətçilərini, xristianlığı həmişə narahat edib. Onlar “pantürkist”, “panislamist” istilahları uydurub, türkləşmək ideologiyasını, dövlət və millət varlığını inkar etməyə çalışıb.

Ötən əsrin 1980-ci illərində Azərbaycanda milli-demokratik hərəkatın başlanması, müstəqil dövlətçiliyin bərpasından sonra (1991) türkçülük məfkurəsi ideoloji-mədəni əhəmiyyət kəsb edib və Xəlil Rza Ulutürkün yaradıcılığında daha poetik qüvvətlə səslənib. Şairin “Qalx ayağa, Azərbaycan”, “Yalnız pasportunda”, “Boz qurda öygü”, “Mən günəş ürəkli Xəlil Rzayam” və başqa şeirlərində türkçülük milli müəyyənlik kimi dəyərləndirilib.

X.R.Ulutürk turançılıq idealında Türkiyəni (“Yaşasın od yurdu, qardaş Türkiyə”, “Nə yaxşı ki...”, “Xəlil, bir az səbr elə”) “köksümüzə səngər” bilib. Onun nəzərində türkçülük, turançılıq fatehlik, mənəmlik olmayıb. Xəlil Rza türk birliyini ona görə tərənnüm edib ki, türk zəif olanların xilaskarıdır.

X.Rza şeirlərində yalnız Azərbaycan türk dilini fərdiləşdirməyib, türk dilləri birliyindən ehtirasla danışıb, türk, özbək, qırğız, qazax, türkmən dillərinə də poetik nümunələr həsr edib.

X.Rzanın türkçülüyü təbliği əsasda olub. O, türk qövmlərini iqtisadi-mədəni birliyə çağırıb. Şair şeirləri ilə bərabər, elmi-tarixi memuarlarında və məqalələrində də türk özümlüyündən geniş bəhs edib. O, ədəbiyyatşünas-alim kimi "Məqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-özbək ədəbi əlaqələrinin aktual problemləri" mövzusunda doktorluq dissertasiyası yazıb, monoqrafiyalar çap etdirib. X.Rzanın arxivində "Türküstan divanı", "Özbəkistan poeziyası", "Şeyxzadə dəftəri" adlı əlyazma qovluqları saxlanılmaqdadır.

Ə.Hüseynzadə, Z.Göyalp və M.Ə.Rəsulzadənin ideya-məfkurə davamçılarından olan X.R.Ulutürk Vətən deyəndə bütün türk dünyasını nəzərdə tutub: "Biz türkləriz... Vətənimiz başdan-başa Yer kürəsi, Bayrağımız al günəşdir, çadırımız göy qübbəsi!" – deyə türkü öyüb. Azərbaycan şairləri Vətən dedikdə həm də Azərbaycanın o tayını – Güneyi nəzərdə tutub, Vətəni bütöv görüb tərənnüm ediblər.

Azərbaycan poeziyasında Vətənçilik məfkurəsi güclü olub. O.Sarıvəllinin "Panamalı dilənçi", "Dəvə karvanı", "Təbriz gözəli", M.Arazın "Dünyadan bir Araz axır", "Astaraçay", "Haçadağ", "Yenə Arazı gördüm", "Arazın işıqları", C.Novruzun "İran qadınlarına heyrət məktubu", "Yuxumda o taya keçdim bu gecə", "Mən sərhəd görmüşəm", B.Vahabzadənin "Neytral zona", "Qəribədir", "İki yol", N.Həsənzadənin "İran şahına məktub", S.Tahirin "Təbrizi gəzirəm", "Ədalət mücəssəməsi", "Cavab versin tarix mənə", S.Rüstəmxanlının "Tarixi yaradanlar"... şeirləri Cənub (Güney) mövzusunda olub. X.Rza da 60-cı illərdən başlayaraq Güney mövzusuna müraciət edib.

Sənətkarın "Sağlıq, yaxud vəsiyyət" (1962), "Oğlum Təbrizə" (1964), "Mən nəyəm ki, ey Vətən" (1962), "Təbrizim mənim" (1965-75), "Anam layla çalır" (1966), "Gözün aydın, Azərbaycan" (1969), "Xiyabani yurdunda" (1975), "Qatar gedər", "Səsin gəlsin, Təbrizim" (1980), "Xudafərin körpüsü" (1980),





"Yaşasın həyat" kimi şeirlərində ideya Vətən birliyi və xalq taleyidir. "Oğlum Təbrizə" (1964) şeirində ata-şairlə bala-Təbriz Azərbaycanın cüt qanadları – o tay, bu tay kimi mənalandırılır. O, "Təbrizim mənim" (1965-75) şeirində oğluna bildirir ki, Təbrizə gedən yollar təkcə sərhəddən yox, həm də mənim gözümdən-könlümdən keçir:

*Soruş, cavab verim mən, hardan başlanır Vətən:*
*Vicdanın öz səsindən.*
*Zülmətdə bir cüt gözün ildırım qüvvəsindən!*
*Min haqsıza baş əyməz bir haqlının əzmindən!*

"Səsin gəlsin, Təbrizim" (1980) şeirində sənətkar radio dalğalarında Təbrizi axtarır, onun səsini eşitmək istəyir. Radionun mili sanki "kirpiyin ucu boyda ümidinin telidir". Ümid alışanda şair doğma səsi, dili yox, "ruhu candan aparan yad dilli bir marş dinləyir: "...Ey şəhid, ey şəhid. Xuni tu iftixar..." Şair Təbrizi öz dərdləri ilə danışdırır:

*Səsin gəlsin, Təbrizim, öz avazın, öz səsin!*
*Yandırsın daş qəfəsi, söksün beton məhbəsi*
*Haqq, ədalət uğrunda alov tutan nəfəsin!*
*Bərkdən danış, əzizim, səsinin möhtacıyam.*
*Yurdu vahid görməyin, yurdu xoşbəxt görməyin*
*təşnəsiyəm, acıyam!*

"Xudafərin körpüsü" (1980) əsərinin mövzu və məzmunu isə iki sahili birləşdirən tarixi körpünün rəmzi mənası ilə bağlıdır.

X.R.Ulutürkün "Həsrət", "Təbrizli şairin düşüncələri", "İki qardaşın söhbəti", "Qalx ayağa, Vətənim", "O gün gələcək" poemaları da Cənub (Güney) mövzusunda olub milli ideallarla, Vətən taleyi ilə əlaqəlidir.

X.Rzanın xalqçılığı azərbaycançılığın, vətənçiliyin tərkib hissəsidir. Şairin xalqçılığında Azərbaycanın ərazi-mənəvi birliyi ifadə olunub.

Azərbaycançılıq Azərbaycan Respublikasının müstəqil dövlətçiliyi ilə möhkəm bağlıdır. Bu barədə nəzəri-ideoloji olaraq akad.R.Mehdiyev, prof.S.Xəlilov, Xalq yazıçısı Anar, İ.Həbibbəyli, prof.N.Cəfərov, prof.N.Şəmsizadə və başqaları fikir söyləyib. Azərbaycançılıq müstəqil Azərbaycan Dövlətinin əsas ideyasıdır. Azərbaycançılıq ideologiya, məfkurə olub elmi-nəzəri və ideoloji zəminə malikdir. Hazırda həmin sistemin siyasi-nəzəri müddəalarını ulu öndər H.Əliyevin ideyaları təşkil edir. H.Əliyev Yeni Azərbaycan Partiyası yaradılmasının altıncı ildönümünə həsr olunmuş yığıncağında demişdir: "Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər – bunların hamısı azərbaycançılıq anlayışının tərkib hissəsidir... Bu məfkurə təkcə Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların, təkcə Azərbaycan dövlətinin maraqlarını deyil, həm də bütün dünyada yaşayan azərbaycanlıların milli-mənəvi maraqlarını ifadə edir".

Azərbaycançılığın, milli ideologiyanın, milli ruhun əsasında dövlətçilik, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü, milli vətənpərvərlik və vətəndaşlıq hissi dayanır. Onun mənəvi potensiyası fasiləsiz mədəni irsimizdir. H.Əliyev Dünya azərbaycanlılarının birinci qurultayındakı çıxışında demişdir: "Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız Qurani-Kərimdə öz əksini tapıbdır. Ancaq bununla yanaşı, Azərbaycanın mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıblar. Bu, bizim adət-ənənəmizdir. Bu, bizim milli-əxlaqi mentalitetimizdir".

Milli ziyalılarımız içərisində Xəlil Rza Ulutürk istiqlal şairləri Məhəmməd Hadi, Əhməd Cavad və Məhəmməd Biriya kimi ədəbi-ictimai fəaliyyəti ilə tarixi vətənçiliyi, turançılığı, azərbaycançılığı, Azərbaycanın dövlət müstəqilliyini təcəssüm etdirib. Xəlil Rzanın poeziyasında Azərbaycanın ümumiləşmiş obrazı milli





dil, tarix, ənənə, psixologiya və mənəviyyatla möhkəm bağlı olub.

Azərbaycan, vətən və xalq məfhumlarının bədii ifadəsi X.Rza yaradıcılığında XX əsrin 1950-ci illərindən görünməyə başlayıb. 1960-cı illərin şeirlərində ideya-estetik məzmun genişlənib, 1970-ci illərin əsərlərində lirik polifoniya, ideya-bədii mündəricə zənginləşib. Milli dil, tarixi reallıq, ənənə, psixologiya və mənəviyyat 1980-ci illərin şeirlərində bədii siqlətilə seçilib, şair "Mən"i 1980-90-cı illərin əsərlərində milli xarakter konkretliyi kəsb edib.

1950-ci illərin şeirlərində X.Rzanın təbiətə münasibəti onun arzu və duyğularını qidalandırıbsa, 1960-cı illərin şeirlərində (1960-1964) poetik obrazlarda, əsasən, təşbeh və metaforalarda təzahür edib. Bu şeirlərdə Azərbaycanın (xalqın) ifadəsi məcazlar şəklində, motiv, duyğu halında müəyyənləşib:

*Bir Muğam zilidir – ox çinarların,*
*Meh dəyən budaqlar – incə kamanım*
*Sən – Zərdüşt zəkalı, Babək baxışlı,*
*Üzeyir nəfəsli Azərbaycanım!*
*("Vətən düşüncələri")*

X.Rzanın 1950-80-cı illər şeirlərində Azərbaycan ideyası (dil və reallıq) tərənnüm, vəsf, etiraf halındadır ("Tamam doğmayan günəş" (1962), "Vətən", "Yanardağ"(1975), "Yaxşı ki, bu yurdun balasıyam mən"(1978), "Mən bu gecə oyağam" (1978), "Mən Azərbaycanam" (1979), "Yurdum, sənin sağlığına" (1979), "Yaxşı ki"(1980).

"Səməndər quşu kimi" (1970), "Şeirimizin Babəki" (1978-80), "Məmməd Araza" (1982), "Xudu müəllim" (1983), "Məndən başlanır Vətən" (1983), "Sənin cavabın" (1984) əsərlərində Azərbaycanın (xalqın) tarixi şəxsiyyətləri xalq psixologiyası və mənəviyyatının təcəssümü kimi qiymətləndirilir. Belə əsərlərin ideyasında xalqla sənətkarın, kütlə ilə şəxsiyyətin birliyi əsas xüsusiyyət olub:

*– Oddur – dedim – bu nəfəs*
*Zəlzələ dağı yerdən bəlkə qopara bilər,*
*Sənətkarı xalqından heç nə ayıra bilməz.*

X.Rzanın poeziyasında xalqın həyat və məişəti (reallıq), psixologiya və mənəviyyatı epik təsvir təhkiyəsindən çox, psixoloji-mənəvi məqamların ifadəsində daha artıq konkretlik kəsb edib.

1980-ci illərin əsərləri içərisində "Məndən başlanır Vətən" (1983), "Azərbaycan" (1988), "Gəlir böyük Azərbaycan" (1986-1990) əsərləri azərbaycançılığın poetik ifadəsi kimi xüsusi yer tutur.

"Gəlir böyük Azərbaycan" əsəri respublikanın müstəqil dövlətçilik ideyası, xalqın gücü və səbatının poetik təcəssümüdür. Xəlil Rzanın lirik-epik, hissi-romantik təsvirlərində mənəvi birlik ideyası bütün millətlərə, hər bir vətəndaşa ünvanlanır, milli şüur və məfkurəyə doğru yönəlir.

X.R.Ulutürk bədii yaradıcılığa XX əsrin 1940-cı illərində başlayıb. Onun arxivində ilk mətbu əsəri 1948-ci il, "Kitab" şeiri ("Pioner" qəzeti) göstərilir. Lakin həmin ildə "Pioner" qəzetində şairin "Abşeron" şeiri dərc edilib. X.Rzanın 50-ci illərdə "Qatar gedər" (1951), "Budapeştdə heykəl" (1951), "Müqəddəs yol" (1952), "Böyük günlər bayramı" (1953), "Radionu dinlərkən" (1954), "Həyat düşüncələri" (1954) şeirlərində poetik intonasiya azlıq edib, "Şərqin gözləri" (1956), "Şairin cavabı" (1956), "Bəzənin, a qızlar" (1961) kimi sosial-siyasi şeirlərində ənənəvi motivlər, epik-lirik təhkiyə görünən xüsusiyyət olub.

1960-cı illərin əsərləri içərisində "Afrikanın səsi" (1960) (sonralar "Azərbaycanın səsi", "Mənim səsim") şeiri azadlıq ideyasının məna tutumu ilə seçilib:

*Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram!*
*Qolumdakı zəncirləri qıram gərək, qıram,*
*qıram!*
*Azadlığı istəmirəm bir həb kimi, dərman*
*kimi!*
*İstəyirəm səma kimi, günəş kimi, cahan kimi!*





*Çəkil, çəkil, ey qəsbkar! Mən bu əsrin gur*
*səsiyəm!*
*Gərək deyil sısqa bulaq! Mən ümmanlar*
*təşnəsiyəm!*

B.Vahabzadə yazırdı ki, "Afrikanın səsi" yalnız Afrika xalqlarının deyil, öz azadlığı və istiqlalı uğrunda ayağa qalxan və müstəmləkəçiliyin, faşizmin hər cür təzahürünə qarşı barışmaz mövqe tutan, imperializmin buxovlarını qıran bir sıra ölkələrin mübarizə əzmi, üsyankar ruhu çox sərrast və qüvvətli ifadə olunub". Həmin illərdə O.Sarıvəlli "Neapol şeirləri" (1961), "Mərakeş lövhələri" (1961), B.Vahabzadə "Sökün çəpərləri" (1965), R.Rza "Lüban oğlu Şəkib" (1967), "Vyana xatirələri", C.Novruz "Zamanın səsi", Ə.Cəmil "Kuba vətənpərvərlərinə", N.Həsənzadə "Fələstin nəğmələri" əsərlərini yazıb.

1960-cı illərdə X.Rza üç kitab ("Məhəbbət dastanı", "Mənim günəşim", "Qollarını geniş aç") çap etdirib. Bu kitablarda ifadə olunan fərdi bədii şüur psixoloji məqamlardan başlayıb. 1970-1980-ci illər poeziyasında aparıcı bədii keyfiyyət olan psixoloji-mənəvi məqamlar öz qidasını əslində 1960-cı illərin ilk nümunələrindən alıb ("Nifrətim var" (1960), "And içirəm" (1962), "Şəlalə kimi" (1962), "Ermitaj və Avrora" (1962), "Ürək qızıl gülə bənzər" (1962), "Əyilmə" (1962), "Qonaq çağırıram bəşəriyyəti" (1963), "Vəzifə" (1967), "Mən Şərqəm" (1968) və başqaları). X.R.Ulutürkün "Vətən, ya ölüm" (1960-1962), "Vyetnam", "Prezident kabinəsi", "Qrenada, Qrenada" (1982), "Rədd olun Vyetnamdan, ey qəsbkarlar" (1966-68), "Sofiyada festival" (1984), "Qəzəb marşı" (1982) əsərləri də beynəlxalq mövzuda qələmə alınıb.

1960-cı illərin əvvəllərindən başlayaraq X.Rzanın yaradıcılığında vətəndaşlıq, vətənpərvərlik ideyaları qüvvətlənib, onunla hakim ideologiya, üstqurum arasında təzadlar da güclənib. Şair sovet həyat tərzini idealizə etməyib. O, həmişə mövcud olanların mənfi tərəfindən obyektə diqqət yetirib, ictimai-siyasi gerçəkliyə müxalif olubdur. X.Rza poeziyasında tərənnüm pafosu azlıq

təşkil edib. Şairin yaradıcılıq fərdiyyəti daha çox mənfiliklərə etiraz əsasında estetik idealını canlandırıb. Bu səbəbdən onun 1970-ci illər poeziyasında, əsasən, təzadların rəngarəngliyi, mövzu zənginliyi, adi hadisələrin poetik dünyasından həyata baxış tədricən yığılıb, ideya-bədii mətn mənəvi-psixoloji təzadları, məqamları öz içinə alıb. 1960-cı illərin şeirlərində X.Rza mövzu və mündəricə baxımından daha duyumlu görünübsə, 1970-ci illərin poeziyasında o, mənəvi-psixoloji olaraq milli həyata və dünyaya nüfuz edib.

X.Rzanın "Yeni zirvələrə" (1971), "Ucalıq" (1973), "Doğmalıq" (1977) kitabları 1970-ci illərdə çap olunub. Movcud hadisələri mənalandırmaq, onlara bədii dəyər vermək, obyektə fəlsəfi-tarixi, əxlaqi-estetik baxış 1970-ci illər poeziyası üçün səciyyəvidir. Bu baxımdan "Yaratmamışdır", "Filosof və şair" (O.Sarıvəlli), "Dünya" (B.Vahabzadə), "Hüseyn Cavid" (N.Həsənzadə), "Müdriklik" (M.Dilbazi), "Azərbaycan – dünyam mənim" (M.Araz), "Yaddaş" (F.Qoca) kimi ədəbi nümunələrdə fəlsəfi dəyərləndirmə və məntiqi mühakimə bədii xüsusiyyətlərdəndir. X.R.Ulutürk də lirik-epik üslubu ilə tarixin, zamanın hadisələrinə diqqət kəsilib, onları lirik-psixoloji və analitik olaraq çözüb. 1970-ci illərin əsərlərində ictimai etirazlar mövcud mühit və şəraitə, insanlar arasında hökm sürən mənəvi-psixoloji, ictimai-siyasi haqsızlıqlara, beynəlxalq şovinizmə, istismara, müstəmləkəçiliyə, imperiyaçılığa qarşı olub.

Şairin ictimai etirazları əvvəlcə özündən ("İlham", "Səməndər quşu kimi" və başqaları), özünüetirafdan başlayıb ("And içirəm" (1974), "Silkələnmə" (1975), "Qarşıdadır" (1979)). X.Rza ictimai etinasızlıq, ətalət və biganəliyə ("Heç olmaz ki...", "İşsiz kişilər", "Düşüncələr" və başqaları) qarşı olanda satira və tənqidə, M.Ə.Sabir ənənələrinə üz tutub, tənqid obyektini nəticə etibarilə özünün arzu və idealları ilə birləşdirib.

1960-cı illərin axırları, 1970-ci illərin əvvəllərindən başlayaraq Xəlil Rzanın yaradıcılığında fəlsəfi-etik məzmun konkretləşib, fəlsəfi düşüncələr mücərrəd, xəyali deyil, həyati zəminə, realizmə əsaslanıb.





İnsan fəlsəfəsində fikir və qəlb azadlığı milli azadlığa (bəşəri) gedilən yol, mənəvi-ruhi təkan olub ("Sükan arxasında", "Ömrüm" və başqaları). "İgidlər, dahilər" şeirində ictimai-fəlsəfi, etik-estetik düşüncələrin ifadəsi qüvvətlənib. B.Vahabzadə yazırdı: "Qəhrəmanların və yaradıcı idrak sahiblərinin ölümdən güclü olması ideyası bu şeirdə çox sərrast ifadəsini tapmışdır". "Cahana sığmayan şair", "Kentavr", "Düzlük" şeirlərində də başlıca fəlsəfi qənaət belədir: Dünya yalnız ruh, ağıl və hikmət sahiblərinindir. Yalnız ağıl və idrakın işığı insanı kamilləşdirə, Tanrıya yaxınlaşdıra bilər!

XX əsr Azərbaycan poeziyasında, əsasən, 1940-50-ci illərdən başlayan İnsan mövzusu (konkret obraz müəyyənliyi) geniş planda, orijinal poetik təsvirdə, zəngin bədii mündəricədə ifadə olunub. S.Vurğunun "İnsan" (1945), R.Rzanın "Mən insanam" (1957), "Vaxt var ikən" (1961), N.Həsənzadənin "Cavabdehəm", "Ata sərvəti", C.Novruzun "İnsan himnləri", "İnsan, insan" (1969), "Tələsin insanlar, gecikin insanlar" (1969), "Sağlığında qiymət verin insanlara", M.Arazın "İnsan monoloqu", H.Arifin "İnsan", "N.Hikmət", Ə.Kərimin "Heykəl və heykəlin qardaşı", B.Vahabzadənin "Dayan, insan" (1970), "İnsan ömrü", F.Qocanın "Adi insan", "İnsan", X.Rzanın "Sarsılma", "Ömür", "İgidlər, dahilər", "Babək", "Nizami", "Sən mənə bir silah verdin" və başqa əsərləri insan mövzusunda olub, fəlsəfi dualizmi bədii şəkildə ifadə edir. Şairin 1980-ci illər şeirləri insanın mənəvi-psixoloji aləmilə daha çox bağlı olduğundan, onu məqam və məramın təcəssümü kimi qiymətləndirmək olar.

X.Rzanın "Taparam səni" (1980), "Ömürdən uzun gecələr" (1982), "Hara gedir bu dünya" (1983), "Daşdan çıxan bulaq" (1986), "Məndən başlanır Vətən" (1988) kitabları 1980-ci illərdə nəşr olunub. Bu illərin əsərlərində mövcud haqsızlıqlara, ədalətsizliklərə etiraz, mübarizlik, inqilabçılıq əhvali-ruhiyyəsi şairin lirik qəhrəmanı üçün əsas olub.

X.R.Ulutürk 1980-ci illərə qədərki əsərlərində sosial-siyasi quruluşa əsasən lirik-epik üslubda diqqət yetirib. 1980-ci illərin əsərlərində isə şairin cəmiyyətə qarşı üsyankar, inkarçı mövqeyi

başlayıb. Bu səbəbdən onun bədii yaradıcılığı güclü publisistika xüsusiyyətləri, patetik intonasiya doğurub. X.R.Ulutürkün ictimai etirazlar 1980-ci illərin poeziyasında, əsasən, rus sovet imperiyasına, beynəlxalq imperializmə qarşı tuşlanıb.

Humanizm və vətənpərvərlik X.R.Ulutürk poeziyasının tərkib hissəsidir. Onun şeirlərinin kökü, mayası Vətən eşqi, Torpaq və Dünya ilə bağlıdır. Xəlil Rzanın humanist görüşləri milli məkanla hüdudlanmayıb, sərhədləri aşaraq bəşəri məzmun qazanıb. Şair yazırdı: "Bizim birinci borcumuz Yer kürəsini qorumaqdır. Yer üzündəki sonsuz gözəllikləri, yer üzünün bütün Ermitaj və Luvr xəzinələrini, Titsian Veçellionun fırçasından çıxmış sənət mirvarilərini, Füzulinin və Şekspirin yaratdığı poeziya kəhkəşanlarını, İbn-Sinanı qorumaqdır. Bütün təfəkkür korifeylərinin ürəyindən, gözlərindən süzülən əbədi işığı qorumaq bizim borcumuzdur... Biz öz qüdrətli əllərimizi sərhədlər, okeanlar, mərzlər üzərindən uzadıb bir-birimizi salamlamalı, öz qəlbimizin qərarını qəti bildirməliyik: – Yaşasın xalqların Azadlıq idealı!". X.R.Ulutürkün şəxsiyyət və yaradıcılığında "vətənpərvərlik kamil formada əqidədir, elmi dünyagörüşün bir sahəsi, tərkib hissəsidir. Lakin o, eyni zamanda hissi həyatla bağlayır, vətənə məhəbbət, sözün geniş mənasında mütərəqqi milli mədəniyyətə məhəbbət, ana dilinə məhəbbət və s. kimi nəcib hisslər şəklində təzahür edən mənəvi-əxlaqi keyfiyyətdir. Buna görə də həm hissi, həm də əqli idrakla bağlı olub, şəxsiyyətin hərtərəfli mənəvi zənginliyi, kamilliyidir".

1980-ci illərin şeirlərindəki humanizm və vətənpərvərliyin ideya qaynaqları şəxsiyyət və tale mövqeyidir. X.R.Ulutürk vətəndaş şair və şəxsiyyət kimi 1980-ci illərin şeirlərində milli idealını aydın ifadə edib. İstiqlal və onun uğrunda mübarizə!

*İlk Allahım, son Allahım – mübarizə! Mənə bənzə!*
*Doğransam da xıncım-xıncım, zərrə-zərrə, rizə-rizə,*
*Məramımdır mübarizə! Mənə bənzə!*

*("Mənə bənzə")*





"Səngər azuqəsi" (1980), "Şəhriyarım" (1980), "Çətin yol" (1981), "Mənə bənzə" (1981) şeirlərində milli idealdan, Vətən taleyindən danışan şair 1980-1990-cı illərin poeziyasında özünün milli xarakterini canlandırıb. Şairin mövqeyi yalnız sovet antipodları ilə mübarizədə deyil, həm də "onun köksünün ümmanları" "haqqı tapdanan xalqlardır". Buna görə də Xəlil Rza Ulutürkün humanizmi milli və bəşəri humanizmdir:

*Bir şair köksündə Azərbaycan var!*
*Bir şair qəlbinin şah damarında*
*Bütün asiman var, bütün cahan var!*

*("Mərdləş, ürəyim")*

X.Rzanın "Məndən başlanır Vətən" (1983), "Gözəl yaşamaqdan əl çəkmək olmaz" (1984), "Dözümlü ol, dəli könlüm" (1984) kimi şeirlərində başlıca bəşəri məzmun insanın öz içinə baxışı, cəsurluq, cəsarət, ləyaqət, məslək, amal və əqidəsindədir. Bunlar dərk ediləndə insanın mənəvi mübarizəsi doğulur. Mənəvi mübarizə X.Rzanı milli azadlığa, hərəkata doğru aparan başlanğıc olub.

X.R.Ulutürkün 1980-ci illər şeirlərinin satirik ifşa və pafosu kəskin olub. Şair belə şeirləri "Ələkbər Sabir işığında" və "Mayakovski işığında" adları altında toplayıb. Bu illərin şeirlərində Sabiranə realizm, həyat hadisələrinin təfərrüatları, ictimai yaraları göstərmək cəsarəti, xəlqilik, humanizm və vətənpərvərlik keyfiyyətləri güclü olub.

Şairin nifrəti, kin-küdurəti güclü olduğundan şeirlərinin publisistik-ritorik intonasiyası da qüvvətli olub ("Bilmirsən, deyim öyrən" (1980), "Verin mənim haqqımı", "Çılğınlıqdan dözümə keçid", "Sənin ölümünü gözləyənlər var" (1986), "Sən inanma məddahlara" (1986), "Türk sözündən qorxan gəda" (1986)).

Xəlil Rza Ulutürk 1988-1990-cı illərdə siyasi çağırışçı, təbliğatçı olub ("Azərbaycan-türk salamı", "Azadlığım", "Sarsılmazdır qüdrətimiz" (1988), "Sumqayıt dastanı" (1988), "Silahlan" (1988), "Tonqallar meydanı", "Azərbaycan", "Qalx ayağa, Azərbaycan", "Azadlıq meydanı", "Tanklar Bakıya girən gecə",

"Şuşam" (1989), "Qara tabutlar gəlir" (1989), "Yaşasın Xalq Cəbhəsi" (1989), "Müstəqillik" (1989), "Qanlı cəllada" (M.S.Qorbaçova) (1990), "Qovacağız" (1990) və başqaları).

X.Rza 50-dən artıq poemanın müəllifidir. "Məhəbbət dastanı" poemasında Xəlil Rza bəşəri düşüncələrini S.Vurğun kimi lirik ricətlərdə verib, Çin, Polşa, Almaniya, Afrika, Macarıstan, Misir, Koreya, Cənubi Azərbaycanın inqilab hərəkatını xatırlayıb. Xirosima dəhşətlərinə etiraz edib. "Atalar-oğullar" poeması müharibə mövzusunda olub, milli-bəşəri ideyaları, taleləri ifadə edib. Lirik poema olan "Bayatı-Şiraz"da (1964-1972) şair insan və dünyanı milli-bəşəri dəyərlərdə mənalandırıb.

X.Rza "Əfsanəli bir ölkə" poemasında siyasi-ekoloji məsələlərdən danışıb, O.Sarıvəlli kimi dənizlərin, dağların "şikayətlərini", hərbi bazaların "etirazlarını" oxucuya çatdırıb. Şair narahatdır ki, dünyanın nizamını pozmaqla bəşər həyatını təhlükələr qarşısında qoya bilərik:

*Hərarət çoxalır Yer kürəsində,*
*Don vurmuş Arktika əriyə bilər.*
*Nəhəng buz dağları min-min nəhr olub*
*Bəşərin üstünə yeriyə bilər.*

"Həsrət" (1971) poemasının mövzusu Güneydir. Təbrizə, onun tarixi keçmişinə lirik münasibət bildirilən əsərdə yadelliyin, Təbrizə qənimliyin ifadəsi də təsirlidir. Şairə görə nə qədər ki, səngərlər var, o qədər də azadlıq eşqi olmalıdır.

1980-ci illərdə X.R.Ulutürk "Hara gedir bu dünya", "İki qardaşın söhbəti", "Qalx ayağa, Vətənim" poemalarını çap etdirib. "Hara gedir bu dünya" poeması dünyanın ictimai-siyasi hadisələrinə etirazın ifadəsidir. Sənətkar insan və mühit, tarix və cəmiyyət arasında olan təzadları göstərməyə çalışıb.

"İki qardaşın söhbəti" poeması Güney mövzusunda olub, lirik əsərdir. Poema Xalq şairi Söhrab Tahirə müraciətlə yazılıb. Şairin tarixə siyasi müraciəti xalqın taleyinə vətəndaş yanğısından irəli gəlib.





"Dənə gələn toyuqlar" (1983) poemasında şair Yer kürəsini nəhəng tora oxşadır, "təyyarələr, qatarlar harasa dən daşıyır". Dünya ölkələrində bəşərin qanı göllənir. Poemada dünyəvi əmin-amanlıq, azadəlik ideyası şairin idealı, bəşərin taleyi kimi dəyərləndirilib.

X.R.Ulutürk azadlıq hərəkatına qoşulduqdan sonra 1990-cı illərin sosial-siyasi hadisələri fonunda "Məftillə sarınmış yaralar" poemasını yazıb.

"Qanım bayrağımdadır" poeması milli azadlıq mövzusundadır, 20 Yanvar şəhidlərinə həsr olunub, 1991-1994-cü illərdə yazılmış lirik parçalardan ibarətdir. Şair çağdaş şəhidliyi 1918-ci ilin Azadlıq şəhidliyinin davamı kimi dəyərləndirib.

X.R.Ulutürk zəngin mədəniyyət və mental təfəkkür sahibidir. Şair sosial-siyasi ziddiyyətləri dərk etdikcə onun azadfikirlilik ideyaları da güclənib. Alim APİ-də müəllim işləyəndə, akademiyada elmi işçi olanda gənclərin siyasi tərbiyəsi, onların azadfikirlilik ruhunun formalaşması üçün gizli təbliğat aparıb. O, "Çənlibel" siyasi dərnəyinin iştirakçısı olanda da gəncliyi sosial haqsızlıqlara, imperiyaya qarşı mübarizələrə səsləyib.

X.Rza 1988-ci ildən erməni şovinizmi və rus imperiyasına qarşı mübarizəyə başlayıb. Azərbaycanın bütün bölgələrində siyasi çıxışlar edib, xalqı mütəşəkkil səfərbərliyə çağırıb. Onun qüdrətli çıxışlarının məğzində Azərbaycanın siyasi müstəqilliyi və demokratiya yolu ilə inkişafı ideyası dayanıb. Belə mövqe şairi "qara siyahıya" salıb, imperiyanın zindanlarına doğru aparıb çıxarıb. X.Rza 26 yanvar 1990-cı ildən 9 oktyabr 1990-cı ilə qədər, 8 ay 13 gün Lefortovo zindanının izolyatorunda saxlanılıb. O, Azərbaycan SSR Prosessual Cinayət Məcəlləsinin 67-ci maddəsi ilə milli ədavəti qızışdırmağa görə SSRİ Baş Prokurorunun müavini İ.Abramovun əmrinə əsasən həbs olunub, ona 3 aydan 10 ilədək iş gözlənilib. Şair 27 ocaq 1990-cı ildə Moskvanın, SSRİ DTK-nın Lefortovo zindanına gətirilib. İlk mühakiməsi 30 yanvar 1990-cı ildə başlanıb. Lakin onun haqqnda ilk cinayət işi 20 yanvar 1990-cı ildə Bakı Şəhər Prokurorluğu tərəfindən kütləvi iğtişaşla əlaqədar olaraq qaldırılıb. Həmin iş 18 yanvarda SSRİ

prokurorluğu tərəfindən SSRİ DTK-nın istintaq orqanlarına həvalə edilib. X.Rza "noyabr 1989 – yanvar 1990-cı il tarixlərdə Bakı şəhərində guya şəxsən və bir dəstə adamla çoxminli mitinqlərdə şəhərin mərkəzi meydanında qəsdən millətlərarası düşmənçiliyə, ayrı-seçkiliyə, erməni millətinin şəxsiyyətini, ləyaqətini alçaldan və onların millətindən asılı olaraq konstitusiya hüquqlarını məhdudlaşdıran hərəkətlər etdiyinə" görə ittiham edilib. Azərbaycanda 20 aprel 1990-cı ildə "Xəlil Rzanı müdafiə komitəsi" yaradılıb. Başda Xalq yazıçıları İ.Şıxlı və Anar olmaqla Azərbaycanın ictimai xadimləri, şair və ədibləri, mədəniyyət və elm nümayəndələri, bütün ictimaiyyət "Xəlil Rzaya azadlıq!" tələb edib. X.Rzanın azad edilməsi üçün xalqın topladığı kütləvi imzadan ibarət olan qovluqlar hazırda Azərbaycan Milli Dövlət Arxivində saxlanılır.*

Şair Lefortovo zindanında 2000 səhifədən artıq əsər yazıb. Bundan 197 şeiri azadlığa buraxıldıqdan sonra "Qıfılı o üzdən olan qapılar" adı altında "Davam edir 37" kitabına daxil edilib. Həmin əsərlər içərisində A.S.Puşkin, M.Y.Lermontov, A.Blokdan tərcümələri və həyat yoldaşı Firəngiz xanıma həsr etdiyi şeirləri vardır. X.Rzanın zindan əsərləri Azərbaycan ədəbiyyatında Xaqani və Fələkinin "Həbsiyyə" adı altında tanınmış şeir ənənələrinin XX əsrə gələnəyidir. Şairin həbsdən sonra yazdığı siyasi şeirləri şəxsi arxivində saxlanılır.

Xəlil Rza filologiya elmləri doktoru, ədəbiyyatşünas-alimdir. O, Azərbaycan ədəbiyyatının həm nəzəri, həm də tənqidi məsələləri ilə məşğul olub. Məqalə və monoqrafiyalarında alimin xalq yaradıcılığı, klassik və müasir irs, habelə, Pribaltika, Slavyan və Qərb ölkələri ədəbiyyatının örnəkləri ilə bağlı fikirləri ifadə edilib.

X.Rzanın "Qüdrətli sənətkar", "Fikir və məna şairi" (1962), "Dəli Kür" romanı – Azərbaycan nəsrinin nailiyyəti kimi" (1962), "Səssiz güllələr" (1965), "Vətəndaş poeziyası uğrunda" (1967) məqalələri 1960-cı illərin ədəbi nümunələridir. Bu məqalələrdə milli poeziyadakı fəlsəfi dərinlik, humanizm duyğuları, şairin vətəndaş mövqeyi, Vətən və xalq taleyi, dövrün ictimai-siyasi mənzərəsi ifadə olunub.

*S.Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat vəİncəsənət arxivi. Fond 30. Xəlil Rza. Siyahı 2.





1970-ci illərin ədəbi nümunələri olan "Şairin ikinci həyatı" (1970), "Üç milyard səs üçün kantata" (1970), "Vətəndaşlığın səmimi tərənnümü", "Vətəndaşlıq poeziyası" (1973), "Əbədi axtarış" (1976), "Çoxşaxəli yaradıcılıq", "Ukrayna mədəniyyətinin günəşi" (1979) məqalələri xalqların, millətlərin tarixi-mənəvi birliyi və faşizmə, imperializmə qarşı azadlıq mübarizəsi, R.Rza və B.Vahabzadə poeziyasının vətəndaşlıq məziyyətləri haqqındadır.

X.Rza türk, slavyan xalqları poeziyasına geniş diqqət yetirib. O, "Çoxşaxəli yaradıcılıq" məqaləsini K.Simonova, "Ukrayna mədəniyyətinin günəşi" (1979) məqaləsini T.Şevçenkoya həsr edib. Məqalələrdə əsas ideya K.Simonov və S.Vurğunun şəxsində xalqların mədəni birliyi və onların bəşəri azadlığa çağırışıdır.

Sənətkar tatar xalqları ədəbiyyatından Abdulla Tukay və Musa Cəlil yaradıcılığı ilə yaxından maraqlanıb, onların əsərlərinin milli məzmunu, vətəndaşlıq qüruru və azadlıq ruhunu yüksək qiymətləndirib. X.R.Ulutürkün poetik görüşlərinə Kiçik və Orta Asiya xalqlarının ədəbiyyatı yaxın olub. O, türk qövmləri poeziyasını ədəbi proses olaraq izləyib, Azərbaycan-özbək ədəbi əlaqələrini araşdırıb. Ömrünün 15 ilini (1969-1985) Məqsud Şeyxzadə və onun müasirlərinin yaradıcılığına həsr edib. "Qardaş xalqın mənəvi sərvəti", "Sənətkar şöhrətinin sirri", "Mədəniyyət iftixarı", "Poeziya xalqın nəfəsidir", "İki xalqın oğlu" məqalələri M.Şeyxzadə haqqındadır.

Şairin türk ədəbiyyatından Tofiq Fikrət, Nazim Hikmət, Rza Tofiq, Məhmət Akif Ərsoy, Namiq Kamal, Yusif Ziya Şirvanlı, Yəhya Kamal Bəyatlı, Rauf Pərfi və başqaları haqqında yazıları, tərcümələri, qiymətli fikirləri vardır.

X.R.Ulutürkün 1970-1980-ci illərdə yazdığı əksər məqaləsi Azərbaycan sənətkarları, onların milli-bəşəri keyfiyyətləri haqqındadır. O, Nizami, Nəsimi, H.Cavid, S.Rüstəm, M.Araz, S.Tahir, H.Arif, B.Vahabzadə, T.Bayram, Ə.Kərim, F.Sadıq, S.Rüstəmxanlı və Z.Vəfa poeziyasının vətəndaşlıq keyfiyyətlərini

əsas götürüb, onları daha çox millilik baxımından təqdim edib. “Şairliyin mahiyyəti” (1976), “Şairlik və bədii tərcümə” (1976), “Qardaş xalqın sərvəti” (1979), “Səadət və döyüş poeziyası” (1981), “Ümid və məhəbbət poeziyası”, “Yaddaşa inam” (1988), “Sanki bir dağ yıxıldı” (1988), “Poeziya cəsurluqdur, bir də...” (1988), “Həyata məhəbbət” (1988), “Vaxtdan uca dayanmağı bacaranlar”, “Musiqidən keçən ömür” (1988) məqalələrində tarixi mövzulara müasir baxış, Vətən və bəşər taleyinə münasibət, milli azadlıq və istiqlal düşüncələri, Azərbaycanın ərazi bütövlüyü, ümumən, bəşəriyyətin müasir vəziyyəti ifadəsini tapıb.

Xəlil Rza folklor, klassik və müasir irs, ədəbi metod və cərəyan, lirik, epik və dramatik növün janrları, üslub və forma, habelə, teatr və tənqid məsələlərinə aid məqalələr yazıb.

X.R.Ulutürk bədii tərcümə məktəbinin görkəmli nümayəndəsidir. O, tərcüməçiliyə 1955-ci ildən başlayıb və onu ömrünün sonunadək davam etdirib. Şair, əsasən, azadlıq, istiqlal, millilik, bəşərilik, xalq taleyi motivləri güclü olan əsərləri dilimizə çevirib ki, bu da onun öz ruhundan irəli gəlib. Xüsusilə, şair tərcümə etdiyi əsərlərdə zəngin mental təfəkkürünü diqqətdə saxlayıb.

“Fərhad və Şirin” (S.Vurğun), “Babək” (İ.Selvinski), “Nəvai” (Aybək), “Əlişir” (Q.Qulam), “Cavanşir” (M.Hüseyn), “Əlişir Nəvai” (İ.Sultan və Uyğu), “Cəlaləddin Mənquberdi”, “Mirzə Uluqbəy” (M.Şeyxzadə) pyeslərinin yazılması müharibə vaxtı xalqı ruhlandırmaq, onun vətənpərvərlik eşqini gücləndirmək tələbindən irəli gəlib. X.Rzanın M.Şeyxzadənin “Cəlaləddin Mənquberdi”, “Mirzə Uluqbəy” əsərlərini dilimizə çevirməsi də eyni səbəblə bağlıdır. Pyeslərdə X.Rzanın diqqətini çəkən əsas ideya xalqın obrazlaşdırılması, onun əsas qəhrəmana çevrilməsidir. Şairin tərcüməsində də xalq obrazı, xalq taleyi ideallaşdırılıb. Əsas ideya daşıyıcıları Cəlaləddin və Teymur Məlikdir. Mirzə Uluqbəy həm tarixdə (o, Əmir Teymurun nəvəsidir), həm də bədii əsərdə faciə qəhrəmanıdır...

X.Rza “Qardaşlıq çələngi” adlı tərcümə kitabında (1982) 111 şairin əsərini dilimizə çevirib. Həmin əsərlərin ideyası, motivləri milli, bəşəri ideallarla, xalq mənəviyyatı məsələləri ilə bağlıdır.





Milli və bəşəri tərəqqi uğrunda mübarizə, vətənpərvərlik, humanizm və müstəmləkəçiliyə qarşı istiqlal əzmi həmin əsərlərin başlıca leytmotivi olub.

1984-cü ildə çap etdirdiyi “Dünyaya pəncərə” kitabında şair sülh, azadlıq, demokratiya, istiqlaliyyət, vətənpərvərlik və humanizm ideyalarını əks etdirən əsərləri dilimizə çevirib.

Tərcüməçinin “Turan çələngi” (1992;2005) kitabında Azərbaycan, türk, özbək, qazax, qırğız, tatar, Krım türklərinin ədəbi örnəkləri dilimizə uyğunlaşdırılıb, Turan dünyası, onun mədəniyyət qaynaqları bir məcrada birləşdirilib.

X.Rza 53 türk sənətkarından qəzəl, qəsidə, rübai, qitə, radiopyes, faciə və başqalarını dilimizə çevirib. Şair bunları ortaq dil, ortaq məkan təfəkkürü və ideya-nəzəri qaynaqları kimi dəyərləndirib.

İ.Selvinski 1940-cı ildə “Babək” (“Çiynində qartal gəzdirən”) faciəsini yazıb və 1946-cı ildə “Sovetski pisatel” nəşriyyatında çap etdirib. Əsərin azadlıq ideyası, yüksək romantikası, xarakter mükəmməlliyi X.Rzanın xüsusi marağına səbəb olub və o, 1970-ci ildə həmin əsəri əruzla dilimizə çevirib. Kitab 1975-ci ildə “Gənclik” nəşriyyatında çapdan çıxıb. Şairin R.Rojdestvenskidən etdiyi tərcümələrin səbəbi də azadlıq ideyasına görədir. 1984-cü ildə çap olunmuş “Otuzuncu əsrə məktub” kitabı da X.Rza və Rojdestvenskinin oxşar ruhunun poetik nailiyyəti kimi qiymətlidir.

Musa Cəlilin “Moabit dəftəri” adlı şeirlər silsiləsinin dilimizə tərcüməsi tatarcadandır. X.Rza M.Cəlil vətənpərvərliyindən, onun azadlıq eşqindən ruhlanaraq əsərlərini dilimizə çevirib.

X.R.Ulutürkün uğurlu tərcümələrindən olan “Qutadqu bilik” (1998; 2003) poeması (Y.Balasaqunlu) türkdilli xalqların ortaq sərvətidir. Həmin poema elmin və dövlətçiliyin təbliği baxımından əhəmiyyətlidir. Poemanın siyasi-ideoloji fikir məzmunu Ulutürkün diqqətini cəlb edib. Əsərin bəşəri ideyası ideal cəmiyyət quruculuğu ilə əlaqəlidir.

X.Rza Ə.Xaqani, N.Gəncəvi, Q.Təbrizi, M.N.Tusi, S.Təbrizi və M.Ş.Vazehin bir sıra əsərlərini farscadan dilimizə çevirib.

Nizaminin “Sirlər xəzinəsi”, “Yeddi gözəl” və “İsgəndərnamə” poemalarının dilimizə son tərcüməsi də Xəlil Rzaya məxsusdur. Şairin “Qardaşlıq çələngi” və “Dünyaya pəncərə” adlı tərcümə kitabları 2012-ci ildə həyat yoldaşı Firəngiz xanım Ulutürk tərəfindən “Dünyaya pəncərə” adı ilə yenidən nəşr edilib.

X.R.Ulutürk publisistik fəaliyyətə keçən əsrin 50-ci illərindən başlayıb. O, əsasən, qarışıq mündəricəli, ədəbi-elmi-bədii səpkili yazıların nümunələrini yaradıb. Onun 1960-cı illərdə qələmə aldığı “Ən böyük səadət”, “Qeyrət vaxtıdır”, “Qızıl gül kimi”, “Fərhad kimi oğullar”, “Muzey bizə nələr deyir”, “Öz nəslinə layiq” məqalələri kökə bağlılıq, zəhmətə vurğunluq, tarix, etnoqrafiya, arxeologiya və memarlıq baxımından əhəmiyyətlidir.

X.Rza 1960-cı illərdən başlayaraq Azərbaycanın milli-mənəvi dəyərlərini daha çox təbliğ edib. “Sumqayıtın günəşi”, “Rüstəmin dilindən”, “Nəğmə kimi ötən günlər”, “Gözəlliyin keşiyində”, “Bahar-bahar”, “Qızıl gül kimi” məqalələri Sumqayıt, Lənkəran, Astara və Ordubad bölgələri haqqındadır.

X.Rzanın 1960-cı illər məqalələrinin mövzusu müxtəlifdir. Şair insan mənəviyyatından yazıb, konkret insanları oçerkləşdirib, təbiətdən, tarixi şəxsiyyətlərdən söz açıb. “Göygöl kimi saf, gözəl”, “Kəklik çolpaları”, “Bir salxım üzüm”, “Qoşqarçay axan yerdə”, “Oğurlanmış dahi”, “Qayalar kimi qüdrətli” məqalələri təbiət və insan barəsindədir.

Xəlil Rza publisistik məqalələrinə geniş şərh, izah səciyyəsi verməyib, daha çox qarşı tərəfi danışdırıb, informasiyanı özündən və qarşı tərəfdən ötürüb, obyektivliyi, elmiliyi və tarixiliyi gözləyib.

Onun 1960-cı illərin ikinci yarısında yazdığı ədəbi-publisistik məqalələri məşhur insanlar və tarixi şəxsiyyətlərlə bağlıdır. “Professor Əkrəm Cəfər danışır” (1969), “Qızıl gül düşür yada” (1969), “Yusif Ziya Şirvanlı” (1969), “Səidə-xoşbəxt deməkdir” (1969), “Saz və tüfəng ilə” (1967), “Səngərdə doğulmuş sətirlər” (1967), “Unudulmaz saatlar” (1968), “Ənənə qol-budaq atır” (1968), “Vaqif sənətinə yaraşan fırça” (1968), “Əyyub Şirinzadə” (1969), “Öləndən sonra da yaşayır insan” (1969), “Şairin sevgilisi” (1969) məqalələri Əkrəm Cəfər, Abbas Zamanov, Yusif Ziya Şirvanlı, Səidə Şeyxzadə, Səyyah Məhəmməd, Əhməd Əhmədov, İlyas İbrahim, Hökumə Billuri, Söhrab Tahir, Əyyub Şəfizadə, Səkinə Şeyxzadə, Mirzə İbrahimov, Əli Mina Təbrizi haqqındadır.





1970-ci illərin bədii publisistikası memuar xüsusiyyətləri ilə səciyyəvidir (“Millilik sənətkarın şüurlu fəaliyyətindən doğmalıdır” (1971), “Milli özəlliklər” (1971) və başqaları). Yazılarda milli-bəşəri dəyərlər güclüdür. “Qardaşım Əli Mahmud”(1971), “Türkana doğru” (1971), “Zaqatala muzeyində”, “Alimin qayğıları” (1973), “Böyük Axuminin sorağında” (1975), “Əziz, sevimli Siyumə xanım”(1975) məqalələri həmin illərin ədəbi-publisistik yazılarındandır.

X.Rzanın publisistikasında diqqəti cəlb edən bir xüsusiyyət də müsahibə janrı ilə əlaqəlidir. 1970-ci illərdə şair ilə bir neçə müsahibə aparılıb (“Sevimli şairimiz ustad Bəndəroğlu həzrətlərinin sorğularına cavabım” (1976), “Əməkdaşımızın şair Xəlil Rza ilə müsahibəsini dinləyin” (1977), “Telegüzgü əməkdaşları Nazim bəy və Tarıyel bəyin sorğularına cavab” (1980) və başqaları). Həmin müsahibələrdə xalqlar arasında mədəni əlaqələr, ana dilinin təmizliyi, “Sirlər xəzinəsi”nin tərcüməsi, azərbaycanlıların soy tərkibi, “Krasnodon qartalları” poemasının yazılması və şairin tatar dilini öyrənməsindən danışılır.

1980-ci illərin publisistikası ədəbi portretlər – oçerklər baxımından seçilib. “Qardaşlıq görüşü” (1980), “Misilsiz milli xəzinə” (1984), “Zeynalımızla ilk görüş” (1985), “Yeganə təsəllimiz” (1985), “Qardaşım, Azər İmam” (1985), “Tofiq Bayram səadəti” (1985), “Kürlə Xəzər qovuşanda” (1986), “Zindanda poeziya günəşi” (1986), “Möcüzələr diyarında” (1986), “Poeziyaya çevrilmiş dostluq” (1987), “Günəş heç bir kəsdən mükafat ummaz” (1987) məqalələri Abbas Abdulla, Firudin Şuşalı, Məstan Günər, Tofiq Bayram haqqındadır.

X.Rzanın bədii publisistikanın nəzəri problemləri ilə bağlı məqalələri də vardır. Bu baxımdan “Bədii publisistika və yenidənqurma” (1986), “Getdikcə fəallaşan janr” (1987) məqalələri səciyyəvidir. Həmin məqalələr publisistika janrı ilə bağlı keçiril-

miş müşavirələr, dəyirmi stollar və yığıncaqlara həsr olunub.

X.R.Ulutürkün 1980-ci illərin sonlarından yazdığı publisistik məqalələri, əsasən, siyasi mövzudadır. Siyasi publisistika onun yaradıcılığında xüsusi kəsər və bədii siqlət kəsb edib. X.Rza bu illərdə bütün gücünü siyasi hadisələrin qələmə alınmasına, tarixləşdirilməsi və xronologiyalaşdırılmasına doğru yönəldib. Həmin yazılarda həm də Azərbaycanın milli azadlıq hərəkatının salnaməsi yaşayır.

Xəlil Rza memuar yaradıcılığına 1960-cı illərdə başlayıb. O, 1962-63-cü il tarixli gündəliyində bu barədə məlumat verib. "Gündəlik – ürəyimin tərcümeyi-halıdır. Buna görə də hər kəsin, xüsusilə də işi-peşəsi xalqın taleyi ilə bağlı olan adamların gündəlik yazması, zənnimcə, bir işdir. Amma düz yazasan. Hər halda buna mümkün qədər səy etmək lazımdır. Çoxdan gündəlik yazmaq fikrindəydim. Ətalət imkan vermirdi. Axır vaxtlar deyirdim: "Qoy dissertasiyanı bitirim, sonra başlaram. Bu vədimə əməl edirəm".

X.Rza 1962-ci ildən ömrünün sonunadək gündəlik (elmi-tarixi memuar) yazıb. Memuarlardan 1960-1990-cı illərin sosial-tarixi şəraiti, mənəvi-psixoloji və elmi-nəzəri səviyyəsi aydın görünür. Prof.Əkrəm Cəfər yazırdı: "Xəlil Rza 300 cilddən artıq gündəliyin müəllifidir. Hərəsi bir dissertasiya həcmində olan bu üç yüz cild, heç şübhəsiz, elmi-tarixi memuarlar kimi qiymətləndiriləcək və ən yüksək mükafata layiq görüləcəkdir".

Şair peşə aludəliyini belə ifadə edirdi: "Otuz ildən çoxdur ki, gündəlik yazmaqla məşğulam, vaxtım nə qədər az olsa da, bu şakərimdən özümü saxlaya bilmirəm. Hərəsi bir doktorluq dissertasiyası həcmində olan cildlənmiş gündəliklərin sayı üç yüzü keçib. Şeirlərimlə yanaşı, gündəliklərim avtoportretlərimdir, burada ədəbi mühitimiz və onu təmsil edən insanların fikir və düşüncələri, ədəbi qurultaylarda, televiziyada, iclaslarda, yubiley mərasimlərində, gündəlik görüşlərimizdə söhbətləri, çıxışları mühüm yer tutur. Səyahətlərə çıxdığım, içəri dünyasını öyrənməyə çalışdığım Leninqrad, Moskva, Daşkənd, Kazan, Naxçıvan, Ankara, İstanbul kimi şəhərlərdə əlini sıxdığım insanlar, gördüklərim, eşitdiklərim, Mixail Şoloxov, Konstantin Simonov, yubiley karvanı Bakıdan, Borçalıdan, Gəncəbasardan tutmuş Leninqrada uzanıb gedən Səməd Vurğun... haqqında düşüncələr bu gündəliyin ayrı-ayrı yarpaqlarıdır".





2004-cü ildə "Gəl, ey səhər", 2005-ci ildə "Ustadım Əkrəm Cəfər", 2006-cı ildə "Lefortovo zindanında", 2007-ci ildə "Bir odlu gözləri, bir də xoş səsi", 2009-cu ildə "Həyat, həyat deyə çırpınan könül" və "Mənim Tanrım gözəllikdir" (2009) adları ilə X.R.Ulutürkün elmi-tarixi memuarlarının cüzi bir qismi redaktorluğumuz və ön sözümüzlə çap edilib.

Xəlil Rza yaradıcılığında mental təfəkkür milli-məfkurəvi şüur, milli ideologiya ilə möhkəm bağlıdır. O, güclü vətənpərvər, milliyətçi və beynəlmiləlçi mütəfəkkir olub. X.Rza ana dilinin işləkliyi, təbliği, qorunması və təmizliyi uğrunda ardıcıl mübarizə aparıb. O, dilə münasibəti təkcə Azərbaycan dili kimi yox, həm də türkçülük siyasəti, ideoloji-mədəni münasibətin üzvi hissəsi kimi ifadə edib.

Şair azərbaycançılıqda daxili, türkçülükdə isə azərbaycançılığa istinadən xarici etnik keyfiyyəti əsas götürüb, türk xalqları və ədəbiyyatına üstünlük verib. Sənətkar kökdən, əcdaddan gələn türk birliyi ideyasını elmi-bədii və publisistik vəhdətdə canlandırıb.

X.R.Ulutürk ardıcıl olaraq milli ideallarla, xalq taleyi problemləri ilə yaşayıb. O, dil və mədəniyyətin, coğrafi-ərazi birliyin yorulmaz təbliğatçısı olub. Cənubi Azərbaycan məsələsi onun yaradıcılığından qırmızı xətlə keçib.

Milli şüur və məfkurə, humanizm və vətənpərvərlik, azadlıq və müstəqillik məsələlərini əhatə edən mental fikir və düşüncələr M.Ə.Sabir, H.Cavid, S.Vurğun, M.Müşfiq, R.Rza, M.Şəhriyar, Ə.Cəfər, İ.Şıxlı, B.Vahabzadə, M.Araz, S.Tahir, Qabil, N.Həsənzadə, H.Arif, C.Novruz, Ə.Kürçaylı, S.Rüstəmxanlı, M.Cavad və başqaları ilə bağlı gündəliklərdə (memuarlarda) konkret ifadə olunub. Ermənistan-Azərbaycan müharibəsi, Qarabağ problemi, azadlıq, müstəqillik idealları ilə bağlı olan ideya qaynaqları 1980-ci illərin ikinci yarısı və 1990-cı illərin memuar yazıları üçün səciyyəvidir.

X.Rza Qarabağ hadisələri başlayanda bir ideoloq, mücahid və azadxah olub. Onun siyasi-ideoloji fəaliyyətinin əsasları "Lefortovo zindanında" adlı elmi-tarixi memuarda ifadə edilib. Kitab şairin 1988-1993-cü illər həyatının tarixi əksidir.

Türk (o cümlədən Azərbaycan) ədəbi-bədii təcrübəsində memuar janrının "tarixi xatirələr", "siyasi xatirələr", "mətbuat xatirələri" (publisistik), "ədəbi xatirələr" (sənədli nəsr), "uşaq xatirələri", "gənclik xatirələri" və başqalarından bəhs edilir. Elmi-tarixi memuar janrı isə XX əsr Azərbaycan ədəbi-sosial fikrində (ümumən, türk qövmlərində) Xəlil Rza Ulutürkün adı ilə bağlıdır.

Ümumiləşdiririk ki, Xəlil Rza Ulutürkün qüdrətli ictimai-siyasi poeziyası, ədəbi-tənqidi görüşləri, bədii tərcümə və publisistikası, elmi-tarixi memuarları ədəbiyyatımızda, ictimai fikir tariximizdə orijinal ədəbi hadisə olub, milli-bəşəri idealları, Azərbaycan dövlətçiliyi və xalq taleyi problemlərini daha yüksək səviyyədə təcəssüm etdirib, görkəmli şair, mütəfəkkir şəxsiyyət, ictimai xadim və milli azadlıq hərəkatının mücahidi olan sənətkarı daha çox fərdiləşdirib.

**Əlizadə Əsgərli,**
*filologiya elmləri doktoru, professor*





## Xəlil Rza Ulutürkün həyat və fəaliyyətinin əsas tarixləri

*Xəlil Rza Ulutürk 1932-ci ildə (bəzi mənbələrdə 1933) oktyabr ayının 21-də Salyan qəzasının Pirəbbə kəndində anadan olmuşdur.*

| | |
|---|---|
| **1948** | - "Abşeron" adlı ilk şeirini yazmışdır. |
| **1949-1954** | - ADU-nun filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır. |
| **1950-1960** | - Azərbaycan Pedaqoji Universitetində baş müəllim işləmişdir. |
| **1954** | - Azərbaycan Yazıçılar Birliyinə üzv seçilmişdir. |
| **1955-1957** | -"Azərbaycan qadını" jurnalının redaksiyasında işləmişdir. |
| **1957** | - İlk dəfə "Bahar gəlir" adlı şeirlər kitabı nəşr olunmuşdur. |
| **1957-1959** | - Moskvada M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu nəzdində yazıçılar üçün açılmış ikiillik Ali Ədəbiyyat kursunun müdavimi olmuşdur. |
| **1958** | - V.Pasternakın "Doktor Jivaqo" əsərinə görə SSRİ Ədəbiyyat Fondu üzvlüyündən çıxarılması məqsədilə əleyhinə təşkil edilmiş imzaatma komissiyasına etiraz etmişdir. |

**1963** - "Müharibədən sonrakı Azərbaycan sovet ədəbiyyatında poema janrı (1945-1950)" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür;
- N.Tusi adına Pedaqoji Universitetində dosent vəzifəsində çalışmışdır.

**1964-1994** - Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda işləmişdir.

**1967** - Azərbaycan yazıçıları ilə birlikdə Türkiyədə olmuşdur.

**1985** - "Məqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-Özbək ədəbi əlaqələrinin aktual problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, filologiya elmləri doktoru alimlik dərəcəsi adını almışdır.

**1986** - Azərbaycanın "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

**1990** - 26 yanvarda Azərbaycan milli-azadlıq hərəkatında fəal iştirakına görə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları tərəfindən məhkum edilmiş, Bakı, Moskva, Rostov, Voronej zindanlarında 8 ay 13 gün həbsdə olmuşdur.

**1991** - Azərbaycan Ali Sovetinə seçkilərdə iştirak etmiş, millət vəkili seçilsə də, deputatlıqdan məhrum edilmişdir.
- "Türk milləti" milli mükafatına layiq görülmüşdür.





-"Davam edir 37" şeirinə görə M.F.Axundov mükafatı laureatı adına layiq görülmüşdür.

**1992** - Azərbaycan Respublikasının "Xalq şairi" fəxri adına layiq görülmüşdür.

**1994** - İyun ayının 22-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

**1995** - Ölümündən sonra, aprel ayının 15-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "İstiqlal" ordeni ilə təltif edilmişdir;
- Anadan olmasının 60 illiyi dövlət səviyyəsində qeyd olunmuşdur;
- "Türkiyə Respublikasının Milli şairi" adına layiq görülmüşdür.

**2001** - "Gənclik" nəşriyyatında "Seçilmiş əsərləri" capdan çıxmışdır.

**2002** - Noyabr ayının 14-də Azərbaycan Respublikasının Prezidenti "Xəlil Rza Ulutürkün xatirəsinin əbədiləşdirilməsi haqqında" Sərəncam imzalamışdır.

**2004** - Anadan olmasının 70 illik yubileyi keçirilmişdir.

**2012** - İyun ayının 4-də Azərbaycan Respublikasının Prezidenti "Xəlil Rza Ulutürkün 80 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır.

**-** - Xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı və Salyan şəhərlərində küçə, Bakıda kütləvi kitabxanalardan biri şairin adını daşıyır.

## Xəlil Rza poeziyasından sətirlər

*Biz Türkləriz... Vətənimiz – başdan-başa Yer kürəsi. Bayrağımız al günəşdir, çadırımız göy qübbəsi!*

*Məslək silahımsan sən poeziya.*

*Mən sənin üstündən qələm çəkərəm,*
*Xalqa çörək kimi gərək olmasan.*

*Misra işıqlanmır, yanmırsa ürək.*

*Yazıldı "Gülüstan müqaviləsi",*
*Pozuldu yurdumun min gülüstanı.*

*Bir yanda şahənşah, bir yanda da çar,*
*Qan ilə yazdılar sülh qərarını.*

*Kim ki, sevmir öz dilini,*
*İtsin mənim gözlərimdən ilim-ilim.*

*Bu Azəri torpağının günəşidir mənim dilim*

*İllər ötdü, yaşa doldum,*
*Anladım ki, ana dilim*





*Ürəyimdən çıxmaz mənim,*
*Doğransam da dilim-dilim.*

*Şərqin sənət bayrağıdır*
*Füzulinin qəzəlləri.*

*Min dünyaya dəyişmərəm,*
*Sabirin bir sətrini mən.*
*Anladım ki, mənim dilim,*
*Ürəyimdən çıxmır mənim.*

*Mənim uşaq lüğətimdə sevgi sözü yoxkən hələ*
*Sevdim ana dilimi mən.*

*Xəlil - ərəb dilində... Rza - ərəb dilində...*
*Xəlil Rza Xəlilov-"ov"-da rus şəkilçisi...*
*Qəhrəman türklüyümdən...*
*Bircə nişanə varmı...*

*Ərzun ən böyük çayı Nilə bənzəyən türkəm.*
*Azərbycan türküyəm, bu soyun şah budağı.*

*Köksümü əlimdə yarıb sökərəm,*
*Zamanla birlikdə nəfəs almasam.*

*Deyirsən, çətindir mərdlik, mətinlik*
*Bəs necə, səadət gələrmi asan?*

*İşdir özün üçün bir gül istəsən,*
*Oğlum, ellər üçün güldəstə istə.*

*Eşqi böyüklərin dərdi də böyük...*

*Borc ödəmək uğrunda*
*Mən bir can məşəliyəm,*
*Borclu ölsəm,*
*Dünyaya təzədən gəlməliyəm.*

*Poeziya dünyasının*
*Mənəm bircə hökmdarı.*
*Cüt gözümdür nurlandıran,*
*Neçə milyard ulduzları.*

*Mən onsuz da əbədiyəm,*
*Cahangirlər gəldi-gedər,*
*Bir gün edam meydanında*
*Başım getsə, verərsəm can,*
*Sən yadların qarşısında*
*Heç bir zaman qara geymə,*
*Ey ağ donlu anam mənim-*
*Ağ çələngli Azərbaycan!*

*Bu gün Prometeyəm mən,*
*Qəlbimi məşəl kimi*
*Vermişəm insanlara*





*Addımlayır neçə milyard*
*ulduzların arasında.*
*Kəhkəşana işıq verən*
*Hərarətdi, Xəli Rza!*

*Məni söz qayasında sətirlər*
*Çəkir dara,*
*Xoşbəxtəm bu əzabla*

*Dərya nüfuzunun*
*Hər damlasını*
*Dağ boyda zəhmətlə*
*Qazanan insan.*
*Mərdlik ucbatından yandın*
*Kül oldun,*
*Yaxşı ki, mərdlikdən*
*Usanmamısan.*

*Bəlkə qardaş deyim sənə?*
*Sən qardaşdan daha yaxın,*
*Biz rəmziyik cüt sinədə*
*Qardaş kimi yaşamağın.*

*Mən öləndən sonra*
*Mənim ömrümün*
*Yüksək mərhələsi*
*Başlanmalıdır.*

## Xəlil Rza Ulutürk qələm dostları haqqında

***B.Vahabzadənin** şeir və poemalarının ən yaxşı nümunələri öz xalqının tarixi mövqeyini dərindən dərk etmiş ayıq gözlü, cəsarətli,vətəndaş şair qələmindən çıxmışdır. B.Vahabzadə sənətin yoxuşları ilə irəliləyən bir sənətkardır. Bu yolda onun hər bir qələbəsi həm dəAzərbaycan şeirinin qələbələrindəndir.*

*Azərbaycanın layiqli oğlu **Teymur Elçin** nəcib, mərd, ata ürəkli şair qardaşımızdır. Biz onun qayğısını həmişə hiss etmişik.O, görkəmli partiya və dövlət xadimi olmaqla bərabər xəzinə bir İnsandır!*

*Möcüzə məqalələrdən biri **Elçinin** "Sübh şəfəqinin işığı" əsəridir. "Ədəbiyyat və incəsənət" qəzetinin 17 sentyabr 1982-ci il tarixli sayında basılmış bu gözəl məqaləni iki dəfə oxumuşam.*

*Yenidən oxumağa və tam mənimsəməyə ehtiyac duyuram. Elçinimizin burada kələfin ucunu Şərq ilə Qərb renesansı arasındakı minlərcə bağlardan birini aşkarlaya bilmişdir. Hüseyn Cavid ilə İtaliya renesansının nümayəndəsi Cambatista Ciraldi Çinto (1504-1573) arasındakı tipoloji ədəbi oxşarlıq bir sənətkarın digərinətəsirinin daha çox, universal dünya renesansının hərəkət dalğaları kimi aşkarlanır.*

*...Sənin oxucun olmaq çətindir, əziz Elçinimiz! Çünki əsl qəhrəman hökmü ilə saçdığın inciləri yığıb-yığışdırmaq olmur...*

*Biz **Rəsul Rzanı** sadə, həssas, qayğıkeş yoldaş, xalq işi uğrunda özünü oda-közə vurmağa hazır olan mərd və yorulmaz bir vətəndaş,yer üzündə bütün yaxşı insanları qucaqlayıb bağrına*





*basmağa hazır olan humanist bir sənətkar kimi tanıyırıq. Azərbaycan poeziyasında Rəsul Rza lüğət tərkibinin genişliyi və zənginliyi cəhətdən müstəsna şairdir. Bu sahədə onun Səməd Vurğundan başqa müqabili yoxdur. Rəsul Rzanın çox nadir hallarda elə şeurinə rast gəlmək olar ki, yeni söz, yeni söz birləşməsi, yaxud yeni ifadə olmasın.*

***Mehdi Hüseynin** yaratdığı müsbət insan surətini səciyyələndirən birinci əlamət mənəvi ləyaqətdir. İnsanın bütün həyatına şölə salan, ən çətin günlərdə belə uca və hərarətli könüllərdən səməndər quşu kimi ayrılmayan, böyük hərflər ilə yazılmış Ləyaqət!Mehdi Hüseyn Azərbaycan torpağına dərin kök atmış sənətkardır.İctimai-bədii fikir axarının ön cərgəsində addımlayan sənətkardır.*

***İsmayıl Şıxlı** gözəllik kəşfiyyatçısıdır. Gözəllik və təbiət şairidir.*

*Mənə elə gəlir ki, Azərbaycan ədəbiyyatında "Dəli Kür" ilə yanaşı qoyula biləcək əsərlərin sayı çox azdır, bəlkə də heç bədii yetkinlik dərəcəsinə görə belə əsərimiz yoxdur. Mən hər hansı yazıçını oxuyanda, birinci növbədə buna fikir verirəm ki, görüm həmin sənətkar öz doğulduğu torpağı tanıyırmı, öz xalqının adət-ənənələrini bilirmi? Əgər mən desəm ki, dünyada mənim üçün Azərbaycan torpağından müqəddəs heç nə yoxdur, siz buna inanın. Məni məhdud hesab etməyin. Mən başqa xalqları da sevirəm. Ancaq bu torpaq və bu torpağın surətini yaradan yazıçı mənim üçün hər şeydən yüksəkdir, ucadır. İsmayıl Şıxlı ona görə mənim üçün bu qədər əzizdir ki, o, bu torpağın ürəyindən qopmuş sənətkardır.*

*Xalqın maddi və mənəvi mədəniyyətinin böyüklüyü, sənətin sirləri, bilməcələri, Azərbaycanın şimalı ilə cənubunun ruh birli-*

*yi, qovuşmaq əzmi, kamilləşmək yollarında insani uğurları və qüsurları – şeirlərində **Nəbi Xəzrini** düşündürən başlıca mətləblər bunlardır.*

***Hüseyn Arif** poeziyasında sözün yaxşı mənasında sintetik polifonik zənginlik var. Buna görə də onun yaradıcılığında folklordan, aşıq ədəbiyyatından gələn işıq müasir insan idrakının müxtəlif qaynaqları ilə birləşir və tamamilə yeni biçimdə meydana çıxır. Bədii dilin heç bir müqavimətə rast gəlməyən təbii axarı, hissi bakirliyi, sözün rəngini, ətrini, istilik, soyuqluq dərəcəsini duymaq bacarığı Hüseyn poeziyasına öz oxucuları arasında böyük nüfuz qazandırmışdır.*

***İsa Muğanna** sözün əsl və dərin mənasında xalq yazıçısı, xalq şairidir. "Şair" sözünü mən təsadüfi işlətmirəm. İsa yaradıcılığının ən yetkin örnəkləri, xüsusilə İmadəddin Nəsimiyə həsr olunmuş "Məşhər" romanı İsa Muğannanın çox böyük şair ilhamına, bədii nəsrinə ayrıca məlahət və zənginlik gətirən poetik təfəkkürə malik olduğunu sübut edir.*

*Lirik qəhrəman – şair ürəyinin aynasıdır. Lirik qəhrəmanın xarakteri necədirsə, şairin də xarakteri eləcədir. Lirik qəhrəman vasitəsilə şair milyonların təmsilçisinə çevrilir, onun poetik "Mən"inin arxasında Vətən, xalq, müəyyən, konkret ictimai məram kimi dayanır. Buna görə də lirik qəhrəmanının xarakterini yarada bilmək üçün şairdən yalnız sənətkarlıq qüdrəti deyil, həm də vətəndaşlıq keyfiyyətləri tələb olunur. Şeirlərinin ən yaxşı nümunələrində **Mədinə Gülgün** bu səviyyədə dayana bilir, onun misraları, fikir və düşüncələri mənsub olduğu xalqın, bağlandığı məramın qayəsi ilahəmahəng səslənir.*





***Nəriman Həsənzadə** fikir və məna şairidir, onun sağlam, humanist poeziyasının çox dərin qatlarında çağdaş Azərbaycan varlığının çox ciddi münaqişələri dilə gəlir, alovları şölə çəkir, sevinc və iztirabları, umud və qayğıları çırpınır. Buna görə bu poeziya bədii idrak əhəmiyyətinə, öyrənilməyə, araşdırılmağa tam layiqdir, bədii estetik tərbiyə, kamilləşmə vasitəsidir, həyatı öz məfkurə güzgüsündə göstərən aynadır.*

***Famil Mehdinin** şeir bulağı safdır, ləkəsizdir. Onun dirilik suyu daşdan, qayadan çıxmır, qaya dözümlü şair ürəyindən süzülüb gəlir.*

*Famil Mehdi fikir və məna şairidir. Bu fikir və mənanın alt qatında şair ürəyinin alovu ilə qızınmış hiss və duyğu axınları çağlayır.*

***Məmməd Araz** həcmcə o qədər böyük olmayan bir şeirlə insani xarakteri yaradır, həmin insanı bütün dərdi, qəmi, həm də ictimai dərdləri, həyatda dərin kökləri olan qəmləri ilə birlikdə nəzərdə canlandırır. "O, dərman istəmir, vətən istəyir".Məmməd Arazı oxuculara sevdirən səbəblərdən biri – onun şeirlərinin xalq ədəbiyyatına, aşıq poeziysına, hətta mən deyərdim ki, musiqiyə yaxınlığıdır. Adlarını tez-tez çəkdiyi Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Aşıq Ələsgər kimi şeir-sənət korifeylərinə pərəstiş etdiyini gizlətməyən Məmməd Araz bu sönməyən, bitib-tükənməz xalq idrakı qaynaqlarından qüvvət alır. Aşıq poeziyasına məxsus bir sıra ədəbi keyfiyyətləri fəlsəfi düşüncə, dərin məna, yüksək şeiriyyat, dilin aydınlığından doğan bədii kəsər misraların dürüst poetik səliqəsi Məmməd Araza güclü təsir edir, bu keyfiyyətlər onun da şeirlərində getdikcə daha dərin kök salır.*

***Zəlimxanımızın** şairliyi fitridir, Allah vergisidir, saz və aşıqlıq üstündə yaranmış qüdrətdir. Otuz ildən bəri könül verdiyi,*

*çalıb-çağırdığı sədəfli sazı Zəlimxanın köksündə bütöv bir orkestr gücünə malikdir.*

*Biz bilməliyik ki, Azərbaycanın guşədaşı türklükdür.... Bizim Türkiyə və bütün Türküstan dünyasına güvənməyimizdir... Böyük salonlarda bu eşqi tərənnüm eyləyir Zəlimxan.Ona görə də, Zəlimxanı ..... ictimai ürək kimi tanımalı, ondan ibrət götürməliyik.*

***Qabil** yaradıcılığı min illik Azərbaycan poeziyasının böyük bədii ənənələrindən, xüsusilə onun məna – mündəricə zənginliyindən, fəlsəfi idrak qüvvəsindən ayrılmazdır. Bu keyfiyyətlər Qabil yaradıcılığının zirvəsi, şah əsəri adlanmağa layiq "Nəsimi" dastanında xüsusilə aydın görünür. Məhz milli poeziya ənənələrinə ciddi poetik sədaqətinə görə Qabil bu möhtəşəm poemada böyük Nəsiminin unudulmaz obrazını yarada bilmişdir.*





## Görkəmli şəxsiyyətlər və qələm dostları Xəlil Rza haqqında

Azərbaycanın böyük şairi Xəlil Rzanın bizim xalqın mədəniyyətinin inkişafında böyük xidmətləri var. Onu fərqləndirən mühüm cəhət yaradıcılığının milli məzmun, milli ruhla bağlı olmasıdır. Buna görə bəziləri onu millətçi adlandırırdılar. Mənim fikrimcə o, millətçi yox, həmişə millətini sevən, millətinin azadlığı uğrunda mübarizə aparan şairdir.

Xəlil Rza Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin ön cərgələrində getmiş, bu mübarizəyə qalxmış gənclərimizə həm alim, həm şair kimi, həm də hörmətli bir insan kimi örnək olmuşdur. O, daim Azərbaycanın müstəqilliyi duyğuları ilə yaşamış, həyatının şüurlu hissəsini buna nail olmağa sərf etmiş, böyük xidmətlər göstərmişdir.

Xəlil Rza bir vətəndaş, bir insan kimi bütün xüsusiyyətləri ilə həmişə sevilmişdir. Mən daim onun yaradıcılığına, insanlığına, vətəndaşlığına, ən çox cəsurluğuna, əyilməzliyinə, öz ideyalarından dönməzliyinə hörmət etmişəm, onu yüksək qiymətləndirmişəm. Xəlil Rzanınn parlaq həyatı, onun böyük vətəndaşlığı, milli-azadlıq uğrunda mübarizliyi bütün azərbaycanlılar üçün nümunə olacaqdır.

O illər – 60-70-ci illərdə Azərbaycanda dissident axtarsaydıq, onlar çox idi... Xəlil Rza da ən böyük dissidentlərdən biri idi. Çünki onun əsərləri həqiqəti deyirdi. Amma bu həqiqət o vaxtkı kommunist ideologiyasına zidd idi və buna görə də onlar dissident idilər. Ancaq biz Xəlil Rzanı da qoruduq, saxladıq.

...Xəlil Rzanı da həbs etmək məsələsini qoymuşdular. Onu da mən qoymadım, xilasetdim. Neçə-neçə belələrini xilas etdim.

**Heydər Əliyev,**
*Azərbaycan xalqının ümummilli lideri*

Xəlil Rza Ulutürkün vətənpərvərlik duyğuları ilə zəngin ictimai-siyasi mövzulu yaradıcılığı xalqımızın bədii poetik fikir səlnaməsinin parlaq səhifələrini təşkil edir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Xəlil Rza bizim çox istedadlı şairlərimizdən biri idi. Onun vətənpərvərlik ruhunda yazdığı şeirlər xalqımız arasında çox populyardır, gənclərin sevə-sevə oxuduğu əsərlərdir. Taleyin ona bir zərbəsi də dəydi, cavan oğlu müharibədə şəhid oldu. Və özü də aramızdan çox tez getdi. Amansız ölüm onun qaynar həyatını qırdı. Amma onun əsərləri, bənzərsiz surəti həmişə qəlbimizdə yaşayır və yaşayacaq.

**Anar,**
*Xalq yazıçısı*

Əgər məndən soruşsalar "Xəlil Rza Ulutürk sənin üçün kimdir?" mən bir cümlə ilə deyərəm: "Millətimizin istiqlal mücahidiridir". Xəlil yalnız qələmi ilə deyil, əməli, fəaliyyəti ilə Vətənimizin istiqlalına xidmət göstərmişdir. Bunlarla da kifayətlənməyən şair öz balasını da bu yolda qurban verməkdən çəkinmədi. Bir sözlə, Xəlil bu Vətən üçün nə lazımsa, onu elədi.

Xəlil Rzanın böyüklüyü ondadır ki, o doğma torpağının azadlığı, xalqının səadəti yolunda öz canından belə keçməyə hazır olan, son dərəcə də cəsarətli, qeyrətli şair-vətəndaş idi. Onun zəngin və mərdanə poziyası da məhz Vətən və xalq idealları ilə mayalandığı üçün əsrlər boyu ürəklərdə yaşayacaqdır.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*





O, Azərbaycan xalqının hərarətli, odlu-alovlu şairi idi. Mürəkkəblə yox, ürəyinin qanı ilə yazdığı şeirlərini həmişə onların əks etdirdiyi məzmuna, mübarizə pafosuna müvafiq olaraq coşqun bir ehtirasla oxuyur, bəzən də vulkan kimi püskürərdi. Xəlil Rza ana dili, onun saflığı, təhsil və tərbiyə sistemində özünəlayiq yeri uğrunda ardıcıl fədakar, mübariz idi.

Xəlil Rza dramatik poeziya ustasıdır. O, buna həyatın sərt həqiqətlərini, ziddiyyət və münaqişələrini dərindən öyrənməklə, onlan çəkinmədən şeirə gətirməklə, can yanğısı sərf etməklə, ilham odu, daxili enerji xərcləməklə nail olmuşdur. Şairin lirik qəhrəmanı böyük və cəsur insandır. O, həyatı sadəcə olaraq seyr etmir, yenidən yaradır. Şair cəsarəti həyatı yaxşı bilməklə, dürüst ideya, məfkurə mövqeyi seçməklə, tərəqqi uğrunda mübarizənin ön cərgəsində getməklə, nəhayət, öz bədii istedadına güvənməklə şərtlənir.

**Bəkir Nəbiyev,**
*akademik*

Xəlil Rza fəal həyat mövqeyinə malik vətəndaşdır, xalqın tələbləri səviyyəsində şair-elm xadimidir. Türküstanla əlaqələrimizi möhkəmləndirmək vacibdir. Məncə, Xəlil Rza elə bir yol götürüb ki, türkmən, qırğız, qazax, özbək dünyasına da varacaq, bütün Türk kainatını mənimsəyə biləcəkdir.

**Kamal Talıbzadə,**
*akademik*

Xəlil Rza mədəsindən dırnağınadək, hüceyrəsindən telinədək şairdi.

**Yaşar Qarayev,**
*akademik*

Mən hər dəfə onunla rastlaşanda "məndə sığar iki cahan, mən bu cahana sığmazam" misralarını xatırlayırdım. Şair Xəlil, müəllim Xəlil bu məhdud, qapalı cahana sığmırdı.

**İsmayıl Şıxlı,**
*Xalq yazıçısı*

Müasir Azərbaycan poeziyasının yaradıcılarından biri olan Xəlil Rza Ulutürk zəngin ədəbi irs yaratmışdır. Onun ədəbi yaradıcılığı və ictimai fəaliyyəti çoxcəhətlidir: şair, ədəbiyyatşünas, tərcüməçi, salnaməçi, müəllim.

**Teymur Əhmədov,**
*filologiya elmləri doktoru,*
*professor*

Xəlil Rza Ulutürk ensiklopedik zəkalı alim, təfəkkürlü ürək sahibidir. Alimlik, şairlik, vətəndaşlıq, qeyrət və hünər onun şəxsiyyətində birləşmişdir, amma hansı tərəfdən baxsan, o qüdrətli, coşqun, Prometey hünərli şairdir.

**Qulu Xəlilov,**
*professor*

Xəlil Rza böyük söz ustasıdır, poeziya quludur, sənət fədaisidir. Xəlil həm də cəngavərliyi, səbri, dözümü ilə həqiqətən ulu Türkdür, türk oğludur.

**Məmməd Araz,**
*Xalq şairi*

Xalqımızın müstəqilliyi yolunda kəfənini çoxdan geyinmiş Xəlil Rza Ulutürk şəhid oldu. Ona "öldü" demək günahdır, məhz şəhid oldu!

Yüzilliyimizin böyük vətəndaşlarından biri olan Xalq şairi Xəlil Rza Ulutürk təkcə böyük şair, görkəmli alim, əvəzsiz tərcüməçi deyildi. O, həm də azadlığı "qram-qram" istəməyən, milli mənliyimiz yolunda qələmini qılınca çevirən Babəkimiz idi.

**Şahmar Əkbərzadə,**
*şair*





Biz Xəlil Rza şairliyindən, Xəlil Rza tərcüməçiliyindən nəyi öyrənə bilirik? Yurdsevərliyi, elmi xidmətin, bədiiliyin yüksək mərhələsini. Məslək qəhrəmanı idi. "Gözümün içinə mil salsalar da, yenə də dönmərəm öz məsləkimdən".

**Zəlimxan Yaqub,**
*Xalq şairi*

Xəlil Rza əsl Vətən Məcnunu idi. Onun anası da, atası da, sevgilisi də, balaları da Vətən idi – Azərbaycan idi. Onun Vətən yolunda şəhid Təbriz balası buna qanlı və canlı sübutdur. Nəsimidən, Musa Cəlildən, Yulius Fucikdən, Lorkadan sonra hansı şairdir ki, bu mənada Xəlil Rzaya bərabər olsun? Və bütün bunlarla demək istəyirəm ki, Xəlil Rza milli şüurumuzun, mənəviyyatımızın, Vətən eşqimizin, müstəqilliyimizin tərənnümündə Azərbaycanın heç bir şairi ilə müqayisəedilməz dərəcədə yüksək zirvədə durur. Bütün məişət xırdalıqlarından, dedi-qodulardan, cılız əhvalatlardan yüksəkdə duran Xəlil Rza həm də cox adi, çox sadə bir insan idi.

X.Rza elə qüdrətli bir sənətkardır ki, onun heç bir cüzi tərifə, qondarma təbliğata ehtiyacı yoxdur. Mən onu bəşər dahilərindən Yulius Fuçik, Qarsiya Lorka, Musa Cəlil və Sabirlə müqayisə edərdim. O Sabirlə ki, mühiti ilə vuruşlarda hər cürə fədakarlığa gedərək, 49 yaşında qan qusa-qusa canını tapşırdı.

**Qabil,**
*Xalq şairi*

Xəlil Rza dünyanın oğlu idi. Mən türk dünyasının böyük oğlu Xəlil bəylə mübarizə dolu ömür yolu keçdiyim üçün xoşbəxtəm.

Xəlil ömürlərdə yaşayır, mübarizə aparır. Mübarizədə keçən ömürsə əbədiyyətə qovuşan ömürdür.

**Firəngiz Ulutürk,**
*"Araz" ədəbi məclisinin və Xəlil Rza Ulutürk mükafatı laureatı. Şairin ömür-gün yoldaşı*

Xəlil Rzanın bütün damarları şimşək idi. Onun damarlarında qan əvəzinə od-alov axırdı.

**Nəriman Həsənzadə,**
*Xalq şairi*

Xəlil Rza Azərbaycanın istiqlaliyyəti yolunda parlaq bir məşəl idi. Özü aramızdan vaxtsız getsə də, bu məşəl sönməmişdir.

**Hüseyn Abbaszadə,**
*Xalq yazıçısı*

Mən istiqlal şairi Xəlil Rzanın bütün yaradıcılıq laboratoriyasına bələdəm. Ona görə də dərin inamla deyə bilərəm ki, onun poeziyası Vətən torpağına məhəbbət çeşməsindən qidalanıb. O, Azərbaycan xalqının azadlıq şairidir. Əsərlərində xalqa məhəbbətlə, zülmə, imperiya əsarətinə dərin nifrət hissləri qoşa qanad kimi onu daim uca fəzalara qaldırır.

**Nəbi Xəzri,**
*Xalq şairi*

Xəlil Rzanın xalqçılığı azərbaycançılığın, vətənçiliyin tərkib hissəsidir. Yəni Azərbaycan Vətəni yalnız azərbaycanlıların yox, həm də onlarla birgə qeyri-azərbaycanlılarındır.

**Əlizadə Əsgərli,**
*filologiya elmləri doktoru, professor*

X.R.Ulutürk istiqlalın, ədalətin, haqqın carçısı idi. Hər cür xəyanətkarlığa, xəbisliyə, bədxahlığa, nadanlığa, düşmənçiliyə düşmən idi. Azərbaycanı o, kin-küdurətdən, vəzifə və şöhrət hərisliyindən uzaq, haqqa tapınan, xoşbəxt və çiçəklənən bir diyar kimi görmək istəyir və bu amalla yaşayırdı.

**Mahmud Məmmədov,**
*Aşıq, şair*

Xəlil Rza bizim zövqümüzün, ruhumuzun münəccimi idi.

**Mikayıl Mirzə,**
*Xalq artisti*





# Ə S Ə R L Ə R İ

## Kitabları

### 1957

**1. Bahar gəlir** /Xəlil Rza oğlu Xəlilov; red. Ə.Abasov.- Bakı: Uşaqgəncnəşr, 1957.- 39 s.

*Kitabın içindəkilər:* İnqilab qatarı; "Yest takaya partiya"; Alovlu ürək; Bahar gəlir; Qırılmış düymə; Elə baxma, gözəl qız; 26-lar (poema).

### 1959

**2. Sevən gözlər:** Şeirlər /Xəlil Rza; red. İ.Soltan.- Bakı: Azərnəşr, 1959.- 83 s.

***Kitabın içindəkilər:*** Üfüqlər yanan yerdə; Radionu dinlərkən; Müqəddəs yol; Şərqin gözləri; Tamam doğmayan günəş; Şairin cavabı; Səməd Vurğuna; Böyük günlər bayrağı; Dostluq; Xəzər; O, dağlarda boy atdı...; Badam ağacı; Mənə nələr dedi turacın səsi...; Ana məktubu; O maral kimi, o qartal kimi...; Sənət eşqi; Üç yarpaq; Sənin bağında; Qızıl salxımlar; Hayıf, ata sən görmədin...; Nə gözəl yerləri qorumuşdur o...; Təbəssüm; Sizin mavzoloyeniz; Övlad həsrəti; Ömr edəydik dağlar qədər; İstisuyun sabahı; O qızın dedikləri; Sən Göy gölə vuruldun, mən isə...; Gözmuncuğu; Ağ saçlı cavan Xəzər; Sıldırım üstündə dayanan palıd; Ən qiymətli əklil; Qandallanmış qandallar; Moskvada Novruz bayramı; İki dəstə gül.

### 1961

**3. Məhəbbət dastanı**: şeirlər və poema /Xəlil Rza; red. İ.Tapdıq.- Bakı: Uşaqgəncnəşr, 1961.- 89 s.

***Kitabın içindəkilər: Şeirlər:*** Afrikanın səsi; Dostluğun qüdrəti; Fişənglər atılanda; Ata işdən gələndə; Nifrətim var; Cavabsız məktub; Ata əlləri; Çinli dostuma; Dincəlmək istəyirəm; Bəzənin, a qızlar!; ***Poema:*** Məhəbbət dastanı.

**1963**

**4. Mənim günəşim**: şeirlər /Xəlil Rza; red. İ.Tapdıq.- Bakı: Azərnəşr, 1963.- 50 s.

***Kitabın içindəkilər:*** Mənim günəşim; Biz nəyi yaşatdıq...; "Vətən, ya ölüm!"; Böyük sənətkar; Doğma ev; Sırıqlı; Zəfər çələngi; Miras; Mənim ata yurdum, ata məskənim; Mənim yelkənim; Şahbulaq; Lənkəranda ikinci bahar; Tufanlarla güləşənlər; Dənizdə çiçəklər; Göy göldə sübh açılır; Bahar; Analar; Bəxtinə nələr düşüb; Mən Dneprə vurulmuşam!; Riqa körfəzində günəşin qürubu; "Günəşin yarısı görünür..."; Bir odlu gözləri, bir də xoş səsi; İlk qar.

**1965**

**5. Qollarını geniş aç**: şeirlər /Xəlil Rza Ulutürk; red. H.Hüseynzadə.- Bakı: Azərnəşr, 1965.- 114 s.

***Kitabın içindəkilər: Mənim məramım:*** Bəşəriyyət və Lenin; "Yest takaya pariya!"; Mənim şeirim; Əbədi məşəl; Sənin gözlərinlə gördüm Sibiri; Ermitaj və "Avropa"; Afrikanın səsi; Kürd şairinə məktub; Güldəstə toplayıram; Oğlum Təbrizə; Həyat düşüncələri; Mənim tələbələrim; İnanmaq istərdim möcüzəyə mən; Tamam doğmayan günəş; And içirəm; Meyar; Yoldan keçəndə; Qonaq çağırıram bəşəriyyəti; Şəlalə kimi; Vurulmuşam mən sənə!; Ürək qızıl gülə bənzər; Əyilmə; Hüseyn Cavidə. Ən böyük səadət: Dağlara qalxıram; Ən böyük səadət; Bahar kimi; Şeir məclisində; Ay aman; Vüsal ərəfəsində; Bir dəstə çiçək; Mingəçevir şəlaləsi; Bakı bağları; Mənim övladlarım; Sən mənim vüqarımsan; Göyçayda payız səhəri; Aç qoynunu, ana torpaq; Sonsuz qüvvət; Bakı sənə vurulmuşam; Nərimanov prospekti; Yeni pəncərələr; Bağda xəzan düşüncələri; Ömrümdə Kür çayını bu rəngdə görməmişdim; Onun təbəssümü.

**1967**

**6. Krasnodon qartalları**: poema /Xəlil Rza Ulutürk; ön söz. S.Rüstəm; red. İ.Tapdıq.- Bakı: Gənclik, 1967. - 127 s.





**1971**

**7. Yeni zirvələrə** /Xəlil Rza; red. M.İsgəndərzadə.- Bakı: Azərnəşr, 1971.- 179 s.

***Kitabın içindəkilər: Vətən düşüncələri:*** Lenin və bahar; Yaşa, mənim partiyam; Ürəyindən istə mükafatını; Böyük cazibə; Quba bağları; Səttar Bəhlulzadəyə; Bütün fəsillərdə bahar yaşayır; Gəncənin çinarları; Bəxtəvərlik duyğusu; Oğullarıma; Yatır gül balalarım; Vətən düşüncələri; Şair neft daşlarında; Ən gözəl gün; Gürcü torpağı; Dəlidağ; Qızıl balıq və şəlalə; Ay ana, yanımda olaydın mənim. *Xəzərdən ayrıla bilmirəm:* Biz üçümüz gəlirik; Ovcumda; Gözlər; Liftdə görüş; Heç kəsə açmaram; Sevən gözlər; Tamam başqa göyərçin; Dəniz səni çağırır; Dəniz kimi yaşamaq!; Qar altında bahar; Uşaq bağçası dənizdə; Xəzərdən ayrıla bilmirəm. *Bağrıma basıram kainatı mən:* Ermitaj; Rədd olun Vyetnamdan, ey qəsbkarlar; Qəzəb marşı; Prezident kabinəsi; Yanğın; Üzü nurlu anam mənim; Anam layla çalır; Saz; Sən ey söz günəşi Azərbaycanın; Bizm qüdrətimiz; Oğullar gərəkdir Azərbaycana; Oyatmağa qıymaram; Xalçaçılar mahnısı; Anam ocaq qalayır; Südsatan; Gül bağında düşüncələr; Qobustan qayaları; Bizim doğma təbiət; Mən dava görməmişəm; Sən mənə bənzəyirsən; Atanın şeir dəftərindən.

**1973**

**8. Ucalıq:** şeilər və poema /Xəlil Rza Ulutürk; red. İ.Tapdıq.- Bakı: Gənclik, 1973. - 166 s.

***Kitabın içindəkilər: "Fəhlə düşüncələri" silsiləsindən:*** Birincilər; Ləyaqət; Fəhlə səciyyəsi; Səhər işə gedirik. Mən xalqıma vurulmuşam: Ömür; Ot tayası yanında; Qardaşım oğlu Babəkə; Tələbə bəxşişi; Qoca arxeoloq; Sərvətim; Sofiyada festival; İrpen! İrpen! ***Xəzər, Türkan bağları:*** Babalar yatan yerdə; Mən bağbanam; İstedad, bərəkət; Əlcəklərim; Balalarım; Sevgi sətirləri; Qollarımın üstündə; Gizli iftixar; Çətin gün; Əməyin ətri; Səadətim. ***Çağırır Göyçay məni:*** Şair Əli Kərim yada düşərkən; Çağırır Göyçay məni; Şair surəti; Təmkin; Ana torpaq. ***Dördlüklər:*** Kişilər yaşayıb dünya üzündə; Birinci qonaqlarım;

Babək; Gəncliyə doğru; Dəftərxanada gülüş; Şair öz şeirinə layiq olmalı; Şair; Rzam üçün; Afrika; Bir gözəl, iki sevgi; Bataqlıq və şəlalə; Asan deyil; Gözəl bir sənət; Özünü dərketmə; Ömür; İncimişəm; Ömrün bahar fəsli təkrar olunmur; Yaşasın vəfa!; Süpürər gecəni; Yer kürəsi – kosmik gəmi; Genişlik; Göz və gözəllik; İlbiz işıldayır; Bahar unutmur; Xəzər – gözümdür; Mavi səma kimi sonsuzdu Göygöl; Oyanarkən; Bülbül o Bülbülü yadıma saldı; Mənimki gətirir; Dostlarım; Qırmızı xonçalı dan yeri məndə; Şehli qızılgül; İdman yürüşündə; Gecə-gündüzüm parlaq; Ata ev tikir; Dan yeri sökülərkən; Bir-birinə yol versələr; Torpaqla həmnəfəs yaşayıram mən; Dəniz haçan gözəlləşir; Baxdım təbəssümlə; Tufan qopanda; Əflatun - "Sokratın həyatı"; Düşsün ayağıma; Əbədi bahar üçün; Bahar təbiəti gəlin köçürdü; Çimərlik də həyatdır!; Dənizə ay düşüb; Dünyaya bahar gəlir!; Məhəbbət – memar; Mənə güldən ağır söz demə, gülüm!; Nə göz doyur, nə könül; Bir düzüm Mirvari; Adaxlım; Nazlana-nazlana yol gedən gözəl; Hər şeyi sənsən; Güldanda yaşama, heyifsən gülüm!; Ayrılarmı nəfəs candan?; Təkcə dodağımla yox; Vüsal çağında; İsməti qoru!; Stol arxasında əyləşən mələk; Kam aldım kaman səsindən; Həsrətin böyüklüyü; Axı söz vermişdin; Günəşlə, dənizlə birgə; Firəngiz üçün; Paruyur Sevakın ölümünü eşidəndə; Arxeoloq düşünür; Nizami; Zirvələr səni səslər; Gövhər qalacaq; Maral buynuzunda günəş; Hər sözün yeri var; Dürlü-dürlü insanlar; Sevindirə bilsəm; Dünən yıxıldınsa; Yenidən pardaxlanır; İlhamına güvən!; Daşın ətri; Həsən bəy Zərdabi; Söz – qəlpə; Sən elə yaşa ki; Nəsimi kimi; Hər dərdin dərmanı məhəbbətdir; Təmkin; Baharda; Lənkəranın palıdları; Sözün qüdrəti; Coşmaq lazım gəlsə; Biri salam uddu; Anarsan məni; Gözlərimin işığı; Poladlaşanlar; Yaxşılıq; Vaxt qızıldır; Susayanda; Hər dan üzü bağdayam; Bağbanam; İkinci həyat da var; Qışın nübar qarı; Kür çayı; Biz gəldi-gedərik, Vətən əbədi; Misra döyüşü; Kəsə yol; Ürək, minnətdar ol mənə; Ucalıq; Alpinist kimi; Yamanlıq-yaxşılıq; Məktəbli qızcığaz; Torpaq; Dağ çayı; Yaxşı ki; Zaman hədər axmasın; Qıyma!; Üç qərinə yanaşı; Yaz yelləri; Cəsarət; Bircə yol gəlirik bu dünyaya biz; Yaltağın nə qədər növləri varmış; Dağlar





neçin qürrələnir?; Dağ yolunda; İlham üstündəyəm; Bugünkü işini sabaha qoyma; Şahin qanadlı bir gəncə; Bizim Vidadi küçəsi; Həyat alovu. ***Poema:*** Atalar – oğullar.

**1977**

**9. Doğmalıq:** şeirlər /Xəlil Rza; red. M.Şükür.- Bakı: Azərnəşr, 1977.- 182 s.

***Kitabın içindəkilər: Poeziya alovu. Şeiriyyətim, qüdrətim:*** Poeziya! Poeziya!; Puşkin; İgidlər, dahilər; Anlamaq səadəti; Dostluğun qüdrəti; Fəhlələr; Avtoportret; Hər şeyin yaxşısı; Tələbə bəxşişi; Əlindən gələni edərsə hər kəs; Məşəl silahlar; Dəmirçioğlu; Kişilər; Sevdiyim sənətkara; Mərdlər və dərdlər; Vətən; Maralgöl; Kiçiyin qüdrəti; Cahana sığmayan şair; Qışda; Sultan-Heydər yaylağında; Yanardağ; Kentavr; Düzlük; Mərdlik məktəbi; Mən diplomat deyiləm!; Heç kəs məndən inciməsin; Yavaş-yavaş; Gənclik; Müəllim; Xırdalar; Yaşamaq; İşıq qaynağı; Saçlara dən düşür; Babalar; Nə qədər ki macal var; Sağlıqlar; Tufandan güclülər; Dördlüklər; Babək; Qatar gedər; Gedər. ***Türkanım mənim:*** Bağban düşüncələri; Mənim qızıl torpağım; Daşdan çıxan su; Üç aylıq tənəklə söhbətim; Xoş gördük yoldaş bahar!; Portağallı bir budaq; Göy göldə sübh açılır; Ertə; Xəzər boyu gülüstanım; Od; Türkan sahillərində; "Həftədə bir kərə, ayda bir kərə"; Səbayel qayaları. ***Sevgi sətirləri:*** Eşitsəm gəlirsən; "Tut mənim əlimdən..."; "Səni gördüm..."; Qəzəl. ***Qardaşlıq dünyasında:*** Bakı-Daşkənd səma yolu; Özbəklər; Çətindir ayrılmaq; Səmərqəndim; Daşkəndin qışı; Məktublar-qol-qanadım; İncəsənət sarayında.

**1978**

**10. Məqsud Şeyxzadə**: anadan olmasının 70 illiyi münasibətilə /Rza Xəlil; [red. A.H.Cəfərov]; AzSSR Bilik Cəmiyyəti.- Bakı: Bilik Cəmiyyəti, 1978.- 66 s.- Mühazirəçiyə kömək.

**1980**

**11. Məqsud Şeyxzadənin bədii yaradıcılığı** /Xəlil Rza

Ulutürk; red. Ş.M.Salmanov; AzSSR EA Nizami ad. Ədəbiyyat İn-tu.- Bakı: Elm, 1980.- 232 s.

***Kitabın içindəkilər:*** Giriş; Məqsud Şeyxzadə yaradıcılığının başlıca inkişaf təmayülləri; Məqsud Şeyzadə yaradıcılığında Azərbaycan-özbək ədəbi ənənələri; Dil, bədii tərcümə və sənətkarlıq; Bədii tərcümə - bədii yarış kimi; Özbəkcədən azərbaycancaya tərcümənin elmi prinsipləri; Sətri tərcüməyə arxalanmaq olarmı?; Qaynaqlar.

**12. Taparam səni:** şeirlər və poemalar /Xəlil Rza.- Bakı: Yazıçı, 1980.- 267 s.

***Kitabın içindəkilər:*** Bəkir Nəbiyev. Şair mövqeyi. ***Ayla günəş arasında:*** Silahım; "Yest takaya partiya"; Mənim şeirim; Vurdun səkkiz əsrin dizini yerə; Yurdum-yuvam; Mən-Azərbaycanam; Yaxşı ki, bu yurdun balasıyam mən; Gözəl yaşamaq; Ayla günəş arasında; Mən bu gecə oyağam; İrəli; Qorxu; Xəzərdə gülüstan; Tikan; İlham; Laylam mənim, nərəm mənim...; Səməndər quşu kimi...; Elə ki, qar yağır...; Ata borcu; Hava kimi, su kimi; And içirəm; Məni tez aldatmaq olur; Gedər; Məsləklə yaşayanda; Pambıqçı ana və bacılarıma; Sərvət; Buz içinə od; Xiyabani yurdunda; Qarşıdadır; Respublikam; Heç ola bilməz ki...; Oğlum Təbrizə; Şeir məclisində; Sizdən əziz kimim var?; Var səsinlə; Mən nəyəm ki, ey Vətən?!; Afrikanın səsi; İki ərəb, iki yol; Tovuz şəhəri; Silkələnmə; Gözmuncuğu; Aldanma. ***Türkanım:*** "Çənlibelə"ə dəvət; Tək qalanda; Məni gecələr də çağırır Xəzər; Xəzərdən bir görünüş; Başlandı payızın qızıl günləri; Tənha bir tənək; Ertə; Bostançı; Tənəklər; Təmizlik uğrunda; Günəşi içənlərin türküsü; Ağaclar; Yazbulaq; Ağsu; Göy göl; Türkanım; Masallı xatirələri; Çıraqqala; Göygöldə sübh açılır; Astara yolları; Bahar kimi. ***Eşqim, Vəfadarım mənim:*** Vüsal çağlarında; Əlini mənə ver; Hicran çağlarında; Ağıllı gözəlim; Ayrılıq qorxusu; Yeni sahillər işıqlandı; Açmaram bu sirri; Təzə əməkdaş; Eşqim, vəfadarım mənim; Ocaq mahnısı; Sən eşq üçün yaranmısan; Gəl, səni səsləyirəm; Səadət; "Hara getsəm, harda olsam...."; Vüsala az qalmış; Qasırğada. ***Satira əvəzinə:*** Mənim polad körpülərim; Sarsılma!; Üz-üzə durmuşuq; Sənin qüdrətin; İşsiz kişilər; Sən hansı cəbhədənsən...; Millət "mücahidləri". ***Poemalar, Balladalar:*** Bayati-Şiraz; Qanadlılar; Mənim məhəbbətim; Əfsanəli bir ölkə; Gələcəksən baharda; Həsrət; Təbrizli şairin düşüncələri; Türkan nərgizləri; Əbədiyəm.





## 1981

**13. Marallar da duz yeyərmiş** /Xəlil Rza Ulutürk.- Bakı: Gənclik, 1981.- 150 s.

***Kitabın içindəkilər: İgidliyə çağırış:*** Sığırçın yuvası; Nənəmə pay apardım; Ana-bala sərçələr; Balaca şair. ***Sevdanın şeirləri:*** Kəpənək; Yaşıl şarım; Qaranquş. Sual-cavab; Hüsnxət dəftəri; Xartut; Fəvvarə; Nərgizim; Bankə vətəgəsində; Bizim anabacılar; Şamaxıya çatar-çatmaz; Doğma sözlər; Kəpənək və dağ çiçəyi; Araxçın; Payız; Quşlar köçəndə; Mahnı və rəqs ansamblı; Layla; Bağça yoldaşım Vəfa; Kim yatıb, kim oyaq?; Qağayılar; Arılar; Nənənin hədiyyəsi. ***Sağıcıdır mənim nənəm:*** Qoruqçu Aslan əmi; Ayı Şəfa bulağında; Körpə maral; Dağ çayında balıqlar; Birinci qar; Ac qalana yemək verək; Saat; Əl üstə kimin əli; Sağıcıdır mənim nənəm; Qara cöngə; Cinaslar; Kombaynçı; Bağ; Kirpilər; Qırqovul; Kişi ruhu; Sarıköynək; Kəpənəklər; Qaranquş; Sərçələrim; Marallar da duz yeyərmiş; Qış günü bağda. ***Qobustana səfər:*** Möhtəşəm qayalar; Arxeolaq; Yaşamaq üçün; Yallı rəqsi; Qavaldaş. ***Bakıdan Astaraya:*** Göyərçin; Xəzərin həndəvəri; Yaralı ceyranın nəğməsi; Lənkəran; Təranə; Gündüz Tahirli; Anara. ***Şüvəlanın gülləri*:** Aynabənddə gülüstan; Yasəmən; Gərgin gülü; Payız gülü-güz gülü; Gülabı; Atası gül; Kələmgülü; Sədbərk-Yüzləçək; Gəncəmalı; Gülümbahar; Dibçəklərim. ***Naxçıvana gəl:*** Sevimli Naxçıvanım; Dəstə kəndi; Gül sovxozu. ***Ələsgər ocağı, Göyçə mahalı:*** Ələsgər ocağı; Dost gəlişi bayram olar; Onun sədəfli sazı; Aşıq Talıb; Dağların nemətləri; Buğda xırmanı; Cavandaz, yaxud mahir atçapan; Sənə xonçalar gəlir; Qollarımın üstündə; Təbriz Göyçədə; Təbrizin yoldaşları; Xınalı qayalar; Tufeyli xına; Çətənə; Qara xırman; Günəbaxan; Göyçənin işıqları; Göbələk; Uçansu-şəlalə; Qayalar; Biçin; Günəş batanda; Dağlara qalxırıq; Göyçənin çiçəkləri; Kəklikotu; Qaymaq-

çiçəyi; Lalə; Pər-pər; Quzuqulağı; Qaz balaları; Durna qatarı; Şakir at minəndə; Kim yatıb kim oyaq? ***Şair dostumun şeirləri:*** Gülzarım, intizarım; Əsrikcirdaxan; Nənəsinin adıyla; Nənənsinə bənzər qızım; Ata, mənə nənəmdən de!; Dinlə deyim, əziz balam; Gülzar balam gül yığır. ***Nəğmələr:*** Xəzərin mirvarisi; Kəpəz; Futbolçular nəğməsi; Ağsu; Beşik nəğməsi. ***Lirik poemalar:*** Göygölə səyahət; Daşkənddən təcili teleqram; Gəlin ayaqla gəzək.

**1982**

**14. Ömürdən uzun gecələr**: şeirlər /Xəlil Rza.- Bakı: Gənclik, 1982.- 149 s.

***Kitabın içindəkilər:*** Bir şair tanıyıram - Hüseyn Arif; ***Odum-ocağım:*** Yurdum, sənin sağlığına!; Mən sənə bənzəyirəm; Şeirim; Yavaş-yavaş; İradə və sağlamlıq dastanı; Mənə bənzə!; Bir cüt limon; Geri qaldım; Səsin gəlsin, Təbrizim!; Mərdləş ürəyim; Vladimir İliçlə söhbətim; Bizim Zeynal; Şairliyin özülü; Şeirimizin Babəki; Ordu başçısı və döyüşçü; Mən uçuram!; Təcili yardım kimi; Çoxlarından fərqimiz; Təbrizli Şəhriyar yazır; Aşıq Novruz; Aşıq Alı; Yaxşı ki...; Xudafərin körpüsü; Təbrizim mənim; Hüseyn xalaoğlu; Redaktor ürəyi; Şəfa; Səngər azuqəsi; Haçan xəstələnsəm; Saz; Sağlıq yaxud vəsiyyət; Meyardı şeirim mənim; “Hardan gəlib çıxdı kəmfürsət mərəz”; Çətin yol; Qarşıma səd çıxanda; Özbəkistan; Dəmirləşən dözüm; Kişi səciyyəsi; “Kimsə tutub gəlir işığımızı”; Xoşbəxtlik; “Sən ki, bunca alışıb...”, Evim; Dostlarım; Mənim bir dostum vardı; Yarım damla göz yaşı; Böyüklük; Bağında nəyin var?; Görüş yerində düşüncələr; Onun mərdlik məktəbi; Qohum, qardaş nəfəsi; İnsanlığı düşünürəm; Kürlə Xəzər qovşağında. ***Mayakovski işığında:*** Mənlik; Mənim keçmişimi tərifləyirsən; Qorxaq; Tutuquşu; Buqələmun; Sənə demədimmi?; Xəbis; Sənə minətdaram; İki şair; Bədgüman nankor; Düşüncələr. ***Bir gözlə yüz şeir:*** “Gecələr yanında, gündüzlər işdə...”; Aslan ürəkli ceyran, yaxud Səyyarə xanım; “Bir gör vüsalımız necə uzandı”; “Səslə məni...”; Gör necə dinc dayanmışam; “Sən tərəddüd içindəsən”; “Üşüyürəm, üşənirəm...”; “Sən məhəbbət yolçususan...”; Vurulmuşam; “Neçin çəkinirsən, gülüm, de, məndən?”; Gözəlsən; Qızıl zəncirli ləlin; Səadətmiş firuzə; Gözdən öpmə, ayrılıqdır!; Yarım stəkan çay; Ah, bu necə qəmzə...; “Üzümü danlama, mələyim mənim”; Yaqut – ayrılıq; “Mən şeir deyəsiyəm”; “Dişlərin ağzında sədəf düzümü”; “Yenə bir stəkan çay gətirmisən”; “Mənim ocağıma əl uzatma gəl!”; “Sənin rizlərini salıram yada”; Aktyorun məhəbbəti; Ömürdən uzun gecələr; İkinci görüş; Dan ulduzu bir qıza; Unudulmaz o gecə; Umacağım; Necə inanardım gül dodaqlara; Qayıtma gəlirəm!; Xəstələnmə!; Sənin üçün gözəlləmə; Telefonda qız səsi; Canım, gözüm, bağışla!; Qadın və kişi; Umu; “Yenə yollarda bahardı yeriyən...”; Zemfira; “Bu yolu baş-başa gedək”; Ocağım; “İnana bilmirəm səadətimin...”; Sevda xanım; Yatan gözəl; Türkü; Səadət zəngi.

**1983**

**15. Hara gedir bu dünya...**: şeirlər və poemalar /Xəlil Rza.- Bakı: Yazıçı, 1983.- 278 s.

***Kitabın içindəkilər: Poeziya ruhun qüdrətidir! Yürüşdəyəm:*** Bir cüt göyərçin kimi; Mində bir; Tufanda; Qasırğa; Mənim günaydın balam; Qəflət ləkəsi; Şirvan qoruğunda ceyran; Şəhriyarım; Halə; Yaşıdım; Gül yastıq; İki fəslin ayrıcında; Min yaşlı çinarlar; Sükan dalındayam, içə bilmirəm!; Sorğular; Ömrüm; Qorx! Qorxma!; Gənclik şəklin və bu günkü özün; “Bir ümmanam mən”; Sədr bilmədimi?; Söz kürsüsü; Yürüşdəyəm; Azərbaycanlı; Min bir dərdin dərmanı; Məmməd Araza; Başıaçıq dayanan kişi; Redaktor; Ənənə-gələnək; Müşfiqdənmi artığam, ya Şandor Petefidən?!; Gənc şair; Könlümlə söhbət; Qayalar şahid olsun!; Mən şərqəm; Bir odlu gözləri, bir də...; Dünya gözəli; “hə” ilə “yox” arasında; Bir düzüm kəhrəba dastanı; Səadət qorxusu; Çobannamə; Mayakovskiylə söhbət; Sonra...; Rübailər; ***Qara hədəfə atəş:*** Ucuzluq, bahalıq; Bir dostun öyüdü; Qəhrəmanlıq; Üz-üzə; Oxudum kitabını; Riyakar; Qiymət; Dil tapa bilmirəm; Nə yaxşı qar yağdı; Ehkamçılara qarşı; Üzümə de; Vəzifə; Sən neçin tutmusan bu vəzifəni; Satqın; Qorxaqlar, cəsurlar; Palıd gövdəsində; Qalan sənətdir ancaq; Xeyirxah rolunda;

Şeirbaz; Qürur mənim, qəm mənim!; Susa-susa...; Süpürgəçi və şair; Az işlənən sözlər; Firəngizə; Yadındamı?; Təslimçilik; Buqələmun; Bir dosta açıq məktub; Göylərdən gələn kişi; Qafiyəbaz; Ocaq; Kor; Gözlərin; Baş girləyən; Dördlüklər. ***Poemalar:*** Hara gedir bu dünya; İki qardaşın söhbəti; Ağ günlərin qaraldımı?; Çinar sınar, əyilməz!; Məni bir dərd yandırır; Qalx ayağa, vətənim!; "Kommunist partiyasının manifesti"; Məktublar gedərgələr; O günlər gələcək!; Biz dənizə gedirik; Vətən oğlu; Türkel balam; Dost məktubuna cavab.

**1986**

**16. Daşdan çıxan bulaq:** [şeirlər və poema] /Xəlil Rza Ulutürk; red. M.Ələkbərli.- Bakı: Gənclik, 1986.- 189 s.

***Kitabın icindəkilər: Ucal, yüksəl respublikam: Eldənizim Türkanda:*** Ata yurdu; İlk dəfə; Burda hər şey sənindir; Obaşdan; Dəniz xaydır; Dənizdən qayıdanda; Babalardan yadigar; Nar dərimi; İki başlı yuva; Budama; Qızıl pətək; Hovuzdan dənizə; Pətək; Neçin yoxdur tüfəngin?; Əmi, sənin at-araban niyə yoxdur?; İlan gör nə qədər xul udub?!; Teleskop; Dan ulduzu, dan yeri; Buynuztikan; Daş-qaş dağları; İmarət; Döşdən çörək çıxaranlar; Öyrənirsən; Biz birlikdə yaşayırıq; Can əmi, rüsxət ver, mən gedər oldum!; Eldəniz; Kirpi nə bic olurmuş; Quyunun qırağında; Tükənməyən sorğuların. ***Uşaqlıqdan yetkinliyə:*** Qonaq gəlib Sənubər; Bizim Tural; Deyirlər kiçik qızam; Uşaqlar oynayanda; Zaqatala qoruğu; Qıran da sən, quran da...; Bir qom çiçək; Vaysınma; Ana; Özbək qızı; Kəşf; Nəsə bir səadət gözləyirəm mən; Haqqın yoxdur sustalasan; Göy göl; Sən mənə qüdrət ver; Nə yaxşı ki...; Nə yaxşı ki...; Məsuliyyət; Bahar dastanından sətirlər; Bəs harda dincəlirsən?; Mən sevmişəm o yeri; Gözəl Astaram; Sükut istəyirəm, dinc qoyun məni; Qrenada, Qrenada!; Müstəqillik; Çörək; Maralgöl; Düzlük; Dincəl, əllərim, dincəl!; Günlər keçir ömürdən; Dördlüklər; Görək kim tez çatacaq?; Bağdan köçəndə; Türkan baharı; Palıd; Suçu; Ağaclar; Bilsən nələr düşündüm; Uzağa üzmək istəsən; Haray, bahar; Bənzəyiş; Çovğun gecəsi; Gözmuncuğu; Saflıq; Borcum; Dneprdə üzürük; Dneprin





üstündə Şevçenko heykəli; Söhbət; Kamranın səhvi; Bir azca qorxuram; Aktyor Mikayıl Mirzəyə; Süleyman dünyası; Südəmərim, gövhərim; Məhəbbət; Əməkçilərə; Oyananlar, oyanmayanlar; Təravət; Körpələrim; "Mənim zəhmətimə mükafat"; "Oyanıram dan üzü..."; Qurub çağı, ərik ağacı. ***Məhəbbət aləmi:*** Heç ola bilməz ki...; Gecələr Türkandayam; Gəlməsin yanıma heç kim bu axşam; Hər şeyə dözsəm də; Qurban olduğum; Sən nəyi bəyənsən; Sənə can atıram; Mənim sözüm, sənin özün; "Bu yolu baş-başa gedək"; Bahar bənzədirlər; Sən danışanda; Ömrüm boyu səninlə; O baxışlar, o gözlər; Bir təbəssüm, bir cüt göz; Sənin adın gələndə; Heç kimi görmürəm səndən savayı; Ümid; Yaxşı ki, varsan; Pərişan gəlmisən; O yerlər; "Yaralı gəlmişəm, gözüm, gözəlim"; Aydınlıq; "Yenə çöhrəndə qızılgül..."; Sən elə bu gün də utancaq-həssas; Sən bəzənəndə; Görüş yerində; Mənim gözəl katibəm; Bu gələn yara bənzər; Mayak; Şuşa səfəri (***poema***).

**1987**

**17. Dramaturgiyada ədəbi əlaqələr:** Azərbaycan və rus dramaturgiyasının inkişafında qarşılıqlı ədəbi əlaqə və təsirin rolu /Xəlil Rza; red. Ş.M.Salmanov; AzSSR EA. Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı: Elm, 1987.- 279 s. "Ədəbi əlaqələr" seriyası.

**1988**

**18. Məndən başlanır Vətən:** şeirlər və poemalar /Xəlil Rza Ulutürk; red. Z.Yaqub.- Bakı: Yazıçı, 1988.- 397 s.

***Kitabın içindəkilər: Sabaha uzanan qollarım:*** Səlahiyyət istəyirəm; İnam; "İnsan xoşbəxt olanda"; Füzulinin bir müsəddəsi; Apardı sellər Saranı; İş yerim; Mənim mükafatım; Kəsə yol; Sənin cavabın; Böyük poeziya salonlarında; Şöhrət; Bir dostumun dedikləri; Ayrılıq türküsü; Türkay balama laylay; Sabaha uzanan qollarım; Oxşayış; Qədir-qiymət; Sarsılma, qardaşım!; Yorulmayasan; Sən mənim səsimi eşidirmisən?; Xoş məqam; Özbək dili; Gürcülərə eşq olsun!; Poeziyam; Əzəmətli şahmatçı; Məndən başlanır vətən; Gözəl yaşamaqdan əl çəkmək olmaz;

Dözümlü ol, dəli könlüm; Heç olmasa bircə nəfər; Azərbaycan. ***Türkan-ilham qaynağım:*** "Hara getsəm, harda olsam"; Məlhəm; Pəhriz; Qapanmasın qapılar; Əbədi gənclik; Bağ salmaq özü də incəsənətdir; Çökəkdə və yüksəkdə; Örnək; Dördlüklər; Toxum səpirəm; Xızır peyğəmbər kimi; Kimin, nəyin rayihəsi?; Məni çağırırlar hər gün dan üzü; "Hərdən yağış olmaq..."; Neçin ağacları çox istəyirəm?; Türkan sağaltdı məni; Qurumuş ağacları bağdan çıxarmaq gərək; Gəlin-qaynata; Bel və qələm; Heç bir kəsin xəbəri yox; Diz çökürəm qarşısında; İnnab ağacı; Əbədi gəncliyin sirri; Sən mənə qüdrət ver!; İlham qaynağım; Yazağzı. ***Qələmdaşlar aləmi:*** Nizami Gəncəvi, əvf elə məni; Xalq qüdrəti; Gözün aydın, Azərbaycan!; Rəsul Rza həsrəti; Sevdiyim şair; İkinci doğuluş; Gözün aydın, Şeyxzadə!; İki şairin söhbəti; Bağında Süleyman Rüstəmlə söhbət; "Çox şeyə çatır gücün..."; Ağasadıq Geraybəyli; "Əl vurma, öldürər!"; Gərək o diyara səninlə gedəm; Dəli könlüm; Mənim Mikayılım var!; Əyilmə; Günəşə qanadlanan tabut; Xudu müəllim; Kişilərə arxalanaq; Doğmalıq; Gözəllik memarı; Yer altında yatan gövhər; Getdim; Yadigar nəyi qaldı; Soyuq almalar; Günərin hünəri; "Birəkət haqqı"; Xəzərdə bir gecə. ***Ələkbər Sabir işığında:*** "Ən qüdrətli oğlunu kölgədə saxlayırsan"; Gücüm, gücsüzlüyüm; Yaxın buraxmayaq!; Zirvəyə qalxmaq yolları; İftiraçıya; Minnətdarlıq; Heç bir ehtiyat!; Çılğınlıqdan dözümə keçid; Verin mənim haqqımı!; Sənin ölümünü gözləyənlər var; Bilmirsən deyim öyrən; Mənim nöqsanımı görən dostlarım; Toxunmadım ilana; Sən inanma məddahlara; Türk sözündən qorxan gəda; Lənət; Hər şey gəldi-gedəri; Aldanma; Hörmət, nüfuz; Sağlıqlar; İstedad; Dost öyüdü; Qalstuklu canavar; Vay o günə!; Öyüdlərin növləri; Barı tanıya bil; Açıq qonuşma; İmportnı!; Canamaz və aftaba; Bəlkə hələ gec deyil; Təslimçi; Sən alçaqsan; Vəzifə ölüsü; Məzar keşikçisi; Qəzəbliyəm!; Sağlıq dilərəm sənə; Bəs niyə susdun?; Mən sənə güvənirdim; Məddah; Başkəsən; Süpürgəçilər türküsü; Haçan, hansı yerdə?; Bədxaha açıq məktub; Dost söhbəti; Silahlan!; Nə yaxşı ki...; Yunsaqqal; Mənim işim səndən keçir. ***Səadətim, məhəbbətim:*** Bircəmsən; Bağdan qayıdanda; Duyğunun adı; Biotoklar; Sən ikinci Xəlilsən;





Açmaram bu sirri; "Ürəyimə dammışdı ki..."; "Yalnız sənin eşqinlə"; Bizə bənzər bu səadət; Yağışlar yağanda; Sən bəzənəndə; Sənin adın gələndə; Güldəstə; Telefon söhbəti; Qəzəl; "Anan sənə can-can deyib"; Səadətim, məhəbbətim; Planetə oxşayanlar. ***Poemalar, dastançalar:*** Könlümə şeir düşüb; Adımız, soyadımız; Sevincim, Təbrizim; Şair ömrü; Sən mənə bir silah verdin; Dənə gələn toyuqlar; Ürəyimdə qalan tikan; Yadındamı, Səmirə?; Qəsbkarlar; Neft daşları; Qasırğadan güclülər; Mən sənə demədimmi?; Mənə şəxsiyyət gərək!; Körpə xartut ağacı; Müşfiq dənizi; Alim düşüncələrim; Afişanı cırsalar da; Çənlibel; Göy gölün yaxasında; Türkan məktubları; Natəvan klubunda; "Ömür kitabı"nı yazan şairə; Sən məndən ürəklisən; İlahi bir gözələ.

**1992**

**19. Ayla günəş arasında:** Şerlər və poemalar /Xəlil Rza; ön söz. İ.Şıxlı.- Bakı: Yazıçı, 1992. - 560 s.

